www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 28 yanvar 2019-cu il Bazar ertəsi № 20 (7190) Qiymət 60 qəpik

**Xəbər**

## Samuxda faciə: 24 yaşlı gənc özünü güllələdi

yazısı səh.14-də

**Gündəm**

### Dəm qazı can almaqda davam edir: nə edək?



Bir daha faciələrdən qaçmağın yolları barədə; mütəxəssisdən xəbərdarlıqlar...

yazısı səh.3-də

### Bakı və Ankaradan İrəvana müştərək ismarış - "Ya sülhü seç, ya da..."

yazısı səh.11-də

### İcra başçısı göyçaylıların gününü "göy əsgi"yə büküb - reportaj

yazısı səh.10-da

### Novruz əfvi anonsu verildi: kimlər azadlığa çıxacaq?

yazısı səh.2-də

### AXH təsis olundu - üç partiya kənarda qaldı

yazısı səh.4-də

### Bakı və İrəvan arasında "5+2" anlaşması... olubmu? - iki rəy

yazısı səh.9-da

### Kirayə qaldığınız evi ala biləcəksiniz - şərtlər və risklər bu yazıda

yazısı səh.5-də

### Paytaxt sakinlərinə müjdə: Bakıya elektrobuslar gəlir

yazısı səh.14-də

### Uşaqlara südü marketdən, yoxsa kəndlidən alaq? - təhlükə

yazısı səh.13-də

### "İrşad Telekom"un sahibinin valideynləri kömək istəyir, həyat yoldaşı susur...

yazısı səh.14-də

### Mənzillərin kirayə bazarında canlanma, satış bazarında isə durğunluq hökm sürür

yazısı səh.13-də

# KREMLİN ERMƏNİSTAN SEÇİMİ: İŞĞALÇI ÖLKƏ "NİFAQ ALMASI"NA ÇEVRİLİR

Moskvadan İrəvana "yumşaq güc" nümayişi, Putinin Paşinyana ikinci "qulaqburması" və Bakının gözləntisi...




yazısı səh.8-də

## Gürcüstanda erməni terrorçuya büst qoyulması olayı böyüyür

Məsələdə "Moskva izi" iddiası ortaya çıxdı; Gürcüstan-Azərbaycan strateji müttəfiqliyinə yenidən baxıla bilər...

yazısı səh.6-da



*Mirmahmud Mirəlioğlu:*

### "Müxalifətdə nə çalınsa da "Heyvagülü" oynayacağam" deyənlər var"

yazısı səh.7-də



### Zamirə Hacıyeva sağa-sola səpələnən milyonların mənbəyini açıqlasa...

yazısı səh.5-də



### Əli Kərimli tərəfdarlarına gizli tapşırıq verib

yazısı səh.4-də

**29 yanvar 2019**

YENİ MÜSAVAT
N 20 (7190) 28 yanvar 2019



## Avropa Şurası şəriət qanunlarına qarşı...

### Britaniya müsəlmanları mülki qanun əsasında evlənməlidirlər

**Strasburqda, Avropa Şurası Parlament Assambleyasında qəbul olunmuş qərar Böyük Britaniyanı şəriət qanunlarına qarşı sərt mövqe sərgiləməyə dəvət edir. Ənənəvi İslam nikahı mərasimindən öncə mülki nikahın kəsilməsinin vacibliyi vurğulanır.**

İnsan hüquqları üzrə Avropa Konvensiyası qeyd edir ki, şəriət qanununa söykənən evliliklər pozulduqda "boşanma və miras işində qadınlar açıq şəkildə ayrı-seçkiliklə üzləşir".

Şəriət qanunları ilə universal insan hüquqları arasında münaqişələri vurğulayan sənəddə deyilir ki, bu problem Albaniya, Azərbaycan və Türkiyədə də mövcuddur.

Bu sahə üzrə mütəxəssis olan vəkillər bildirir ki, bir çox müsəlman cütlük İslam törəni sonrasında vətəndaş nikahına daxil olmur. Bu isə gələcəkdə ciddi problemlər yaradır.

Sənəddə qeyd edilir ki, şəriət qanunları "Britaniya hüquq sisteminin bir hissəsi" deyil. Şəriət qanunu əsasında evlənənlər sonda elə həmin qanunlara əsasən də boşanmalı olur. Bu isə qadınların əleyhinə işləyir.

❑ **Elbəyi Həsənli, musavat.com**



## "Daily Telegraph" Trampın arvadından üzr istəyib

**Britaniyanın "The Daily Telegraph" qəzeti ABŞ-ın birinci xanımı Melaniya Trampdan onun haqqındakı məqalədə faktların təhrif olunması səbəbindən üzr istəyib və kompensasiya ödəməyə hazır olduğunu bildirib. Bu barədə "Associated Press" agentliyi məlumat yayıb.**

"Təəssüfümüzün əlaməti olaraq biz xanım Trampa kompensasiya, həmçinin məhkəmə xərclərini ödəməyə hazırıq", - nəşrin bəyanatında belə deyilir. Ödənişin məbləği açıqlanmır.

Burada söhbət Melaniya Tramp haqqında qəzetin həftəliyində yanvarın 19-da dərc olunmuş məqalədən gedir. Məqalədə onun atası barədə faktlar təhrif olunmuş şəkildə verilib. Habelə qəzet yazıb ki, ABŞ-ın hazırkı prezidenti Donald Trampla ailə quranadək Melaniyanın karyerası uğursuz olub.

"Biz etiraf edirik ki, xanım Tramp ərə gedənədək özü uğurlu peşəkar model olub və işə ərinin yardımı olmadan düzəlib", - deyə Britaniya qəzeti qeyd edib.

## Zaqatalada 38 yaşlı qadın intihara cəhd edib

**Zaqatalada 38 yaşlı qadın intihara cəhd edib. "Report"un Şəki-Zaqatala bürosunun məlumatına görə, hadisə rayonun Lahıc kəndində baş verib.**

Kənd sakini, 1981-ci il təvəllüdlü Gülşən Muxtar qızı Balabəyeva yaşadığı ünvanda ailə münaqişəsi zəminində intihar etmək məqsədi ilə birneçə dərman qəbul edib. G. Balabəyeva yaxınlarının köməkliyi ilə Zaqatala Rayon Mərkəzi Xəstəxanasına aparılıb.

Xəstəxanadan "Report"a bildirilib ki, həkim müdaxiləsindən sonra G. Balabəyevanın vəziyyəti stabilləşib, müalicəsi Reanimasiya şöbəsində aparılır.

Faktla bağlı araşdırma aparılır.

# Novruz əfvi anonsu: bu dəfə kimlər azadlığa çıxacaq?

**"Əfv Komissiyasının katibliyi və əfv sektoru daim işləyir, mütəmadi olaraq müraciətləri qəbul edir. Bu il böyük ehtimalla Novruz bayramı ərəfəsində əfv sərəncamının imzalanacağı gözlənilir".**

Bunu Modern.az-a açıqlamasında Prezident yanında Əfv məsələləri komissiyasının üzvü Əlimməmməd Nuriyev bildirib. Komissiya üzvü qeyd edib ki, daxil olan müraciətlərlə bağlı aidiyyəti üzrə arayışlar hazırlanır: "Müraciətlərlə bağlı qanunvericilikdə nəzərdə tutulmuş addımlar atılır. Bütün prosedurlar tamamlandıqdan sonra müvafiq arayışlar Əfv Komissiyasının sədri Ramiz Mehdiyevə təqdim olunacaq. Yenə də qanunvericiliyin tələblərinə görə, sədrin təşəbbüsü ilə iclaslar çağırılacaq. Hələ ki iclasların vaxtı bəlli deyil. Ümumilikdə əfv sərəncamının verilməsi təbii olaraq, Prezidentin konstitusion səlahiyyətlərinə daxildir. Ona görə də əfv sərəncamının verilib-verilməməsilə bağlı son sözü də ölkə rəhbərliyi deyəcək".

Ə.Nuriyev Prezidentin təşəbbüsü və humanist addımı ilə hər il Novruz bayramı ərəfəsində əfv sərəncamlarının verilməsinin ənənə halını aldığını vurğulayıb: "Ona görə bu ilin də istisna olmayacağı gözlənilir".



Komissiya üzvü hüquq müdafiəçilərinin təqdim etdiyi siyahının da diqqətlə nəzərə alınacağını bildirib: "Bu, hər zaman belə olub. Prezident hüquq müdafiəçilərinin, Ombudsmanın və digərlərinin müraciətlərini nəzərə alaraq, əfv sərəncamı imzalayır. Söhbət kiminsə "siyasi məhbus", yaxud hansısa ad altında məhkumluğundan getmir, ictimai fəal şəxslərin azadlığının müzakirəsindən gedir ki, hər zaman Komissiya tərəfindən buna həssas yanaşılır. Cənab prezident bir neçə gün əvvəl hüquq müdafiəçiləri - Səadət Bənənyarlı, Sahib Məmmədov, Rauf Zeyni və mənim bloger Mehman Hüseynovla bağlı müraciətimə müsbət cavab verərək, bir daha deyilənləri təsdiqlədi. Ona görə də əminliklə deyə bilərik ki, prezident bu kimi məsələləri hər zaman diqqət mərkəzində saxlayır. Bildiyiniz kimi, ötən sərəncamla müxtəlif KİV-lərdə "siyasi məhbus" adlandırılan 12 nəfər azadlığa qovuşdu. Ümid edirik növbəti əfv sərəncamında da bu kateqoriyadan olan şəxslərina adını görə biləcəyik".

Qeyd edək ki, 2018-ci ilin may ayında Cümhuriyyətin 100 illiyilə bağlı prezident tərəfindən imzalanan böyük əfv sərəncamı ilə 634 məhkum cəzadan azad edilib. Onlardan 609 nəfər azadlıqdan məhrumetmə cəzasının qalan hissəsindən azad olunub.

## Azərbaycanda bu şəxslər dövlət hesabına müalicə ediləcəklər

**Baş nazir Novruz Məmmədov "Peşə təhsili müəssisələrində əlavə müayinə və müalicəyə ehtiyacı olan şəxslərə əlavə müalicə-bərpa xidməti göstərilməsi Qaydası"nı təsdiq edib. Publika.az xəbər verir ki, qaydalara görə peşə təhsili müəssisəsində əlavə müayinə və müalicəyə ehtiyacı olan şəxslər üçün fərdi qaydada aparılacaq müalicə-bərpa xidmətləri ərazi dövlət tibb müəssisələri tərəfindən müəyyən edilir.**

Peşə təhsili müəssisəsində təhsil alanların tibbi profilaktik müayinəsi təhsil müddəti dövründə ildə bir dəfədən az olmayaraq, həmin təhsil müəssisəsində və ya ərazi üzrə ambulator-poliklinik xidmət göstərən tibb müəssisəsində aparılır. Dövri tibbi profilaktik müayinələrin nəticəsinə uyğun olaraq aşağıdakı tədbirlər həyata keçirilir:

- ötən tədris ili ərzində təhsilalanların sağlamlığının dinamikasının qiymətləndirilməsi, xəstəliklərin erkən əlamətlərinin və funksional pozuntuların aşkar edilməsi və onların aradan qaldırılması üçün müvafiq əlavə müalicə-bərpa tədbirlərinin təşkili;
- peşə təhsili dövründə tədris-istehsalat yükünün təhsilalanlara təsirinin öyrənilməsi;
- sağlamlığında pozuntular (müxtəlif orqan və sistemlərin xəstəlikləri, fiziki, cinsi və digər morfofunksional pozuntular) aşkar edilmiş təhsilalanların dispanser qeydiyyatına götürülməsi və onların müvafiq müalicə-bərpa müəssisələrinə yönəldilməsi;
- sağlamlığında pozuntular aşkar edilmiş təhsilalanların təhsili davam etdirə bilməsi və seçdiyi peşəyə uyğun işə yararlılığı barədə rəy verilməsi;
- sağlamlığında pozuntular aşkar edilmiş təhsilalanların peşə təhsili müəssisəsi daxilində sağlamlaşdırıcı tədbirlərə cəlb edilməsi, bədən tərbiyəsi və idmanla məşğul olanların həkim nəzarətində saxlanılması;
- aparılan müalicə-bərpa tədbirlərinin və tibbi profilaktik müayinələrin səmərəliliyinin təhlili və nəticələri əsasında müvafiq korreksiyaedici fəaliyyətlərin təşkili.

Sənəddə qeyd edilib ki, peşə təhsili müəssisəsində əlavə müayinə və müalicəyə ehtiyacı olan şəxslərə əlavə müalicə-bərpa xidmətləri dövlət büdcəsi vəsaiti hesabına göstərilir.

## Bu gün Bakıda 14° isti olacaq

**Ölkə ərazisində bu günə gözlənilən hava şəraiti ilə bağlı məlumat açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Musavat.com-a verilən məlumata görə, yanvarın 28-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Gecə bəzi yerlərdə zəif duman, çiskin. Lakin 28-dən 29-na keçən gecə bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Arabir güclənən cənub-qərb küləyi gündüz şimal-qərb küləyi ilə əvəz olunacaq, arabir güclənəcək. Havanın temperaturu gecə 4-7° isti, gündüz 9-14° isti, Bakıda gecə 5-7° isti, gündüz 12-14° isti təşkil edəcək. Azərbaycanın rayonlarında hava əsasən yağmursuz olacaq. Lakin gündüzdən bəzi yerlərdə yağış, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Gecə 1-6° isti, gündüz 10-15° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 3-6° isti təşkil edəcək.



## Dünyada cəmi 5 ölkədə əkilən meyvə Azərbaycanda da yetişdirilir

**Lənkəranda 100 hektardan artıq sahədə nadir sitrus bitkisi olan hallabonq əkilib. Bu barədə Trend-ə Lənkəran Rayon İcra Hakimiyyətindən məlumat verilib.**

Bildirilib ki, meyvənin yığım vaxtı digər sitrus bitkilərindən fərqlənir: "Cənub bölgəsində olan digər sitrus bitkiləri oktyabr-noyabr aylarında yığılsa da, hallabonq meyvəsinin yığımına dekabrın 25-dən sonra başlanır və yığım 1 ay davam edir. 2016-cı ildə 15 hektar ərazidən 10-12 ton məhsul yığılmışdı. 2017-ci ildə isə əlavə olaraq 18,7 hektar, digər sahədə 15,3 hektar hallabonq əkilib. Bu il isə həm sahə çoxdur, həm də məhsuldarlıq".

Gələcəkdə hallabonq sahəsinin artırılması planlaşdırılır.

Qeyd edək ki, hallabonq və ya dekopon adlandırılan nadir sitrus bitkisi dünyada cəmi 5 ölkədə, o cümlədən Azərbaycanda yetişdirilir. Meyvənin vətəni Yaponiyadır. Yaponiyadan sonra bu bitki Cənubi Koreyada əkilib. Daha sonra bu meyvənin Amerika Birləşmiş Ştatları və Braziliyada yetişdirilməsinə başlanıb. Meyvə 2015-ci ildə Azərbaycana gətirilərək Lənkəranda əkilib. Həmin il Lənkəranda 15 hektar sahədə hallabonq əkilib və müsbət nəticə əldə olunub.

Hallabonqun çəkisi 350-400 qram arası dəyişir, forması armudvaridir. Meyvənin tərkibi insan orqanizmi üçün vacib olan vitaminlərlə zəngindir. Meyvə əsasən diş tökülməsinin və şəkər xəstəliyinin qarşısını almaq baxımından xeyirlidir. Meyvə insan orqanizmindəki zərərli maddələrin, müxtəlif xəstəliklərin qarşısını alır.

YENİ MÜSAVAT
N 20 (7190) 28 yanvar 2019

**Bakıda yanvarın 26-da Türkdilli Dövlətlərin PR Mütəxəssislərinin Birinci Bakı Forumu keçirildi. Foruma dövlət qurumları və özəl şirkətlərin mətbuat katibləri, yerli və türkdilli ölkələrin PR mütəxəssisləri, o cümlədən, Beynəlxalq PR Assosiasiyasının (İPRA) prezidenti Svetlana Stavreva, Türkiyə Halkla İlişkiler Dərnəyinin rəhbəri Gonca Karakaş, media və ictimaiyyət nümayəndələri qatılmışdılar.**

# Türkdilli dövlətlərin PR mütəxəssislərinin Birinci Bakı Forumu keçirildi

## Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistanın dövlət və özəl sektorlarda çalışan PR uzmanları bir araya gəldilər

Forum Azərbaycan Dövlət Himninin səsləndirilməsi ilə açıq elan edildi.

Azərbaycan İctimaiyyətlə Əlaqələr Mütəxəssisləri Assosiasiyasının (APRA) sədri, “Baku School of PR” şirkətinin direktoru İlham Məmmədzadə Forumun ölkədə PR mütəxəssislərinin hazırlanmasında ciddi rol oynayacağını bildirdi. O qeyd etdi ki, bu Forumun keçirilməsində məqsəd türkdilli dövlətlərin PR mütəxəssisləri arasında təcrübə mübadiləsi üçün yeni bir platforma yaratmaq, habelə bu ölkələrdə ictimaiyyətlə əlaqələr sektorunun inkişafına töhfələr verməkdir. İ.Məmmədzadə vurğuladı ki, ilk forumunun Bakıda keçirilməsi ölkəmizin türkdilli dövlətlərin inteqrasiya mərkəzinə çevrilməsinin bariz nümunəsidir: “Türkdilli Dövlətlərin PR (ictimaiyyətlə əlaqələr) Mütəxəssislərinin Birinci Bakı Forumu türkdilli dövlətlərin inteqrasiyasına yönəlmiş fəaliyyətinə dəstək olan, bu dövlətlərin PR mütəxəssislərini ilk dəfə olaraq bir araya yığan və onların əməkdaşlığı üçün platforma və şəbəkə yaratmaq, əməkdaşlıq yolları barədə müzakirələr aparmaq, müasir demokratik cəmiyyətlərin mühüm idarəetmə elementlərindən biri olan PR-ın bu ölkələrdə inkişafına yardım etmək və s. bu kimi məqsədlər üçün təşkil olunan beynəlxalq konqresdir. Forum Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan,









Qırğızıstan, Türkmənistanın dövlət və özəl sektorlarda çalışan PR mütəxəssislərini bir araya gətirib”.

Bakı Forumunun birinci sessiyasında “Müasir kommunikasiya texnologiyalarının inkişaf trendləri” müzakirə edildi.

Spikerlər - Beynəlxalq PR Assosiasiyasının prezidenti Svetlana Stavreva “Rəqəmsal transformasiya və süni zəka dövründə hekayəmizi necə danışmalı?”, Türkiyə Halkla İlişkiler Dərnəyinin rəhbəri Gonca Karakaş “İctimaiyyətlə əlaqələrdə gələcəyin trendləri”, “KeepFace” (Azərbaycan) şirkətinin həmtəsisçisi Emin Vəliyev “Müasir kommunikasiya kanalları və influenserlər”, biznes məsləhətçi, “Afandi Consultancy Azərbaycan” şirkətinin rəhbəri İlham Əfəndiyev “Effektiv Dijital PR” mövzusunda çıxışlar etdilər.

İkinci sessiyada (“Ölkə brendi və PR”) spikerlər Ceyda Aydede (PR Mütəxəssisi, IPRA-nın keçmiş prezidenti - Türkiyə) “Ölkənin marketinqi və PR-ı necə edilir?”, Vəli Əlibəyov (Avropa Ekspertlər Şurasının üzvü - Azərbaycan) “Ölkə brend ola bilərmi?”, Gülnurə Toraliyeva (Bishkek School of PR - Qırğızıstan) “PR-da strateji yanaşmalar və böhranəleyhinə kommunikasiyalar”, Asif Usubəliyev (Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin direktoru - Azərbaycan) “Türk mədəniyyətinin təbliği işində PR texnologiyaların imkanları” mövzularında danışdılar.

Üçüncü sessiyada (Türkdilli ölkələrdə PR-ın vəziyyəti: problemlər və perspektivlər) Kamran Əliyev (APRA-nın xarici əlaqələr koordinatoru - Azərbaycan) “Azərbaycanda ictimaiyyətlə əlaqələr: pərakəndə PR yoxsa kampaniya əsaslı PR?”, Tariel Cəlallı (Action Global Communications, Qazaxstan Ofisinin Rəhbəri) “Qazaxıstanda PR bazarı və trendlər”, Afət Yaqubova (Laboratoriya PR Agentliyinin direktoru - Azərbaycan) “Medianın pullu olduğu dövrdə PR PR-dırmı?”, Jaloliddin Usmanov (Beynəlxalq Press Klub, sədr müavini - Özbəkistan) “Özbəkistanda PR” mövzularında çıxış etdilər.

Çıxışlardan sonra iştirakçılar və spikerlər arasında interaktiv debatlar aparıldı.

Foruma qatılan “Yeni Müsavat” qəzetinin redaktoru, “Vətəndaş Maarifləndirilməsi” İctimai Birliyinin icraçı direktoru Elşad Məmmədli PR-dakı çatışmazlıqlar, dövlət qurumları və şirkətlərin media, ictimaiyyətlə əlaqələrinin inkişafı, qarşılıqlı əməkdaşlıqlarla bağlı fikirlərini bölüşdü, spikerlərlə debat apardı.

Tədbirin sonunda mükafatlandırma mərasimi oldu. Daha sonra Forum iştirakçıları “Qala gecəsi”ndə bir araya gəldilər.

**❑ M.MAHRIZLI,**
**Musavat.com**

# Dəm qazı can almaqda davam edir: nə edək?

## Bir daha faciələrdən qaçmağın yolları barədə; mütəxəssisdən xəbərdarlıq: “Gecə qaz qızdırıcıları mütləq söndürülməlidir...”

2019-cu il başlayandan, demək olar ki, hər gün dəm qazından zəhərlənmə ilə bağlı xəbərlər alırıq. Ekspertlər və müvafiq qurumlar mətbuat, televiziya vasitəsilə ictimaiyyəti məlumatlandırsa da, insanlar qazla davranışlarında yenə də ehtiyatsızlığa yol verirlər.

Yanvarın 26-da Suraxanı rayonunda bir ana, üç övladının yaşadıqları mənzildə cansız bədənləri tapılıb. Məlum olub ki, 1990-cı il təvəllüdlü Cəfərova Elmira Fərhad qızı və üç övladı - 2015-ci il Əsgərli Əli, Əsgərli Fatimə və Əsgərli Zəhra dəm qazından boğulublar. Eyni gündə Xətai rayonunda da dəm qazından zəhərlənmə hadisəsi baş verib. Belə ki, 2-ci Zeytun küçəsi 285 nömrəli evdə yaşayan 1980-ci il təvəllüdlü Sadıqov Emin vanna otağında dəm qazından zəhərlənərək dünyasını dəyişib.

Yanvarın 25-də Samux sakini dəm qazından zəhərlənib. Rayonun Alıuşağı kənd sakini, 1994-cü il təvəllüdlü Mehdiyeva Nuranə Müzadil qızı yaşadığı evin vanna otağında olan zaman dəm qazından zəhərlənib. O, dərhal xəstəxanaya yerləşdirilib. Vəziyyətinin normal olduğu bildirilir. Bakıda güclü küləyin müşahidə edildiyi 2 gün ərzində 16 nəfər dəm qazı zəhərlənməsi ilə bağlı Klinik Tibbi Mərkəzin Toksikologiya şöbəsinə müraciət edib. Şöbədən bildirib ki, onlardan 6 nəfəri hospitilizasiya olunub. Ümumilikdə yanvarın 1-dən 18-nə qədər 32 nəfər dəm qazı zəhərlənməsi ilə qeyd etdiyimiz şöbəyə müraciət edib. Küləkli keçən iki gün ərzində Sumqayıt şəhərində isə 11 nəfər dəm qazından zəhərlənib.



Göründüyü kimi, insanlar daha çox havaların küləkli keçdiyi günlərdə dəm qazından zəhərlənirlər. Ekspertlər tövsiyə edirlər ki, dəm qazından zəhərlənmənin qarşısını almaq üçün gecə saatlarında qazı söndürmək lazımdır. Çünki əksər hallarda tüstü bacaları lazımı səviyyədə təmizlənmir. Yaxud da vətəndaşlar tərəfindən qurulan qaz sobalarının tüstü bacaları standartlara uyğun şəkildə hazırlanmır.

Bu barədə “Yeni Müsavat”a danışan ekspert Nüsrət Qasımov bildirib ki, rezin, plastik borularla qaz çəkmək olmaz: “Havalandırma sisteminə də diqqət etmək lazımdır. Dəm qazının iyi var. Bu, sarımsaq iyinə oxşayır. Həmçinin dəm qazı gözü acışdırır. Hamam otağında digər təsirlərdən bunu hiss etməyə bilərsiniz. Ona görə də hamam otağının ölçülərinə də diqqət etmək lazımdır. Hamamın həcmi 7.5 kubmetr olmalıdır. Hündürlüyü 2.20 sm, qapısı da bayıra açılmalı və aşağısında deşiklər olmalıdır. Səbəb də xaricdən havanın daxil olaraq, yanma prosesinə kömək etməsidir. Havalandırma elə işləməlidir ki, 1 saatda 3 dəfə içərinin havası dəyişsin. Heç kim bu normativlərə fikir vermir. Eyni zamanda vətəndaş özü qaz sobasını qurmalı deyil. Bunu üçün də ustalar var. Qazla məşğul olan ustaların da lisenziyası olmalıdır ki, bu da yoxdur. Vətəndaş müvafiq standartları bilmədiyi üçün yanlışlığa yol verə bilər. Qazla yanlış davranış isə facie ilə nəticələnir. Bundan əlavə, gecə yatan zaman da qızdırıcını mütləq söndürmək lazımdır. Çünki gecə saatlarında qaz kəsilə, yaxud bacadakı problem səbəbindən dəm qazı formasında evə dola bilər. Bunun da sonu bəllidir. Qazı yandırma qaydasına da diqqət etmək lazımdır. Öncə odu gətirmək lazımdır, sonra qazı açmaq gərəkdir. 1 kubmetr metan qazı yanan zaman 9 kubmetr hava lazım olur. Bu hava çatmayanda və ya çox olanda yanma prosesi pozulur. Bu zaman da karbon 4 oksid əvəzinə, karbon 2 oksid ayrılır və 7 dəqiqə ilə 30 dəqiqə arasında o mühitdə nəfəs alan insan zəhərlənir. Ona görə də, tüstü, boru ilə xaricə ötürülməli və bu boru da damdan 50 sm hündürə qalxmalıdır. Bu da su qızdırıcılarının gücündən asılı olaraq 100 mm-dən, 150 mm-ə qədər dəyişir”.

Bu gün bölgələrdə, Bakının kəndlərində yerləşən həyət evlərinin bir çoxunda “ceyran peçi” deyilən qaz sobalarından istifadə edilir. Mütəxəssislər bildirirlər ki, bu cür sobaları quran zaman mütləq baca da hazırlamaq lazımdır. Onların sözlərinə görə, baca kimi diametri böyük olan borulardan istifadə etmək mümkündür. Bunun üçün boru evdən 50 sm hündürə qalxmalıdır. Ən təhlükəsiz isə kombi sistemi qəbul edilir. Lakin sistemi qurmaq baha başa gəldiyi üçün hər kəsin kombi almağa imkanı çatmır.

Dəm qazından zəhərlənmənin səbəbləri sırasında bir neçə hallar durur. “Yeni Müsavat” olaraq onlardan bəzilərini təqdim edirik:

- suyu qazla qızdırılan duş və vanna otaqlarında nəfəsliklərin olmaması (duş qəbul edən şəxsi nəzarətdə saxlamaq və tez-tez maraqlanmaq vacib şərtdir);
- soba ilə qızdırıcı sistemlərdə texniki təhlükəsizlik qaydalarının pozulması;
- standarta uyğun olmayan və kustar yolla hazırlanmış qızdırıcı cihazlardan istifadə edilməsi;
- sobanın qapağının vaxtında bağlanmaması;
- yanacağa yanma üçün lazımi miqdarda havanın daxil olmaması;
- tüstü çıxarıcı boruların və tüstü bacasının yaxşı işləməməsi;
- sobanın və tüstü çəkən bacanın nasaz vəziyyətdə olması;
- sobada və borularda çatların və nasazlıqların olması;
- insanların yanğın ocaqlarında olması;
- qarajda avtomobilin işlək vəziyyətdə olması;

Dəm qazından zəhərlənən zaman ilk olaraq küt başağrısı, başgicəllənmə, gicgah nahiyəsində döyüntü hissiyyatı, təngnəfəslik, quru öskürək, gözdən yaş axma və müvazinətin itməsi kimi hallar baş verir ki, bunu da hiss etdiyiniz zaman dərhal otağı və ya olduğunuz yeri tərk etməlisiniz. Təcili olaraq zərərçəkmişə oksigenin verilməsini təmin etmək əsas şərtdir.

**❑ Əli RƏİS,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 20 (7190) 28 yanvar 2019

# AXH təsis olundu - üç partiya kənarda qaldı

**Yanvarın 26-da ADP qərargahında Azərbaycan Xalq Hərəkatı təsis konfransı keçirib. Tədbirə 20-dən çox partiya sədri və 300-ə yaxın iştirakçı qatılıb. Artıq hərəkatın Gəncə, Mingəçevir və Gədəbəydə dayaq dəstələri yaradılıb, digər bölgələrdə isə bu istiqamətdə işlər görülür.**





**Sabir Rüstəmxanlı:** "Xalq hərəkatı idarə olunsun, xaosa çevrilməsin"
**Fərəc Quliyev:** "Hərəkat milli maraqlara uyğun davranış nümayiş etdirəcəksə..."
**Əli Əliyev:** "Hərəkat müxalifətin bir hissəsinin pərakəndəliyinə son verə bilər"

AXH-nin Azərbaycanda nələri dəyişə biləcəyi, nələrə nail olacağı yönündə fərqli fikirlər səslənir. Hərəkatın geniş çevrəni əhatə edəcəyini düşünənlər də var, bunun əksini deyənlər də.

Tədbirdə əsas diqqətçəkən məqamlardan biri o olub ki, hərəkatın yaradılmasında əsas qüvvələrdən olan Ümid, ADP və AXP kimi qurumlar konfransda aktiv iştirak etməyiblər. Hətta Ümid sədri İqbal Ağazadə və ADP sədri Sərdar Cəlaloğlu tədbir keçirilən zalda ən arxa sırada əyləşiblər, tədbirin ortasında isə zalı tərk ediblər. AXP sədri Pənah Hüseyn isə ümumiyyətlə, tədbirə qatılmayıb. Bütün bunlar geniş müzakirələr doğurmaqla yanaşı, hərəkatın fəaliyyətinə zərbə vuracağı yönündə mülahizələri artırıb.

AXH-də iştirak etməyən VHP sədri Sabir Rüstəmxanlı "Yeni Müsavat"a açıqlamasında hərəkat barədə tam məlumatlı olmadığını söylədi: "Xalqın hüquqları tapdalansa, xalqa yuxarıdan aşağı baxılsa, gec-tez xalq hərəkatı olacaq. İstər bunu müxalifət etsin, istərsə də, öz-özünə formalaşsın. Yaxşı olar ki, bu xalq hərəkatı idarə olunsun, xaosa çevrilməsin".

Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev hərəkata uğurlar arzuladı: "Hərəkatın mövqeyi, nizamnaməsi ilə tanış deyiləm. Amma onun tərəfdarıyam ki, Azərbaycanda siyasi palitrada nə qədər təşkilatlar olsa bir o qədər xeyirlidir. Əgər hərəkat milli maraqlara uyğun davranış nümayiş etdirəcəksə, cəmiyyətin toparlanması, problemlərin həlli üçün fəaliyyət göstərəcəksə, bu istənilən halda alqışlanmalıdır. Amma bundan sonrakı fəaliyyətə qiymət verilməsi daha çox məqsədəuyğundur. İndi bəyanatlara qiymət vermək bir az doğru olmaz. Ümid edirəm ki, deyilən niyyətlər gələcəkdə əmələ çevriləcək. Mən xeyirli-uğurlu olsun deyirəm".

Hərəkatın əsas təmsilçilərindən sayılan AĞ Partiya başqanı Tural Abbaslı ümidlidir: "Hesab edirəm ki, təsis konfransı kifayət qədər izdihamlı və möhtəşəm keçdi. Tədbirdəki insanların da əhval-ruhiyyəsi çox pozitiv və bu hərəkatın gələcəyinə ümidli idi. Mən də bu hərəkatın gələcəyinə ümidlə baxıram və əminəm ki, əgər burada birləşən partiya və siyasilər prosesi doğru istiqamətə apara bilsək, tez bir zamanda məqsədimizə çatacağıq. Biz prosesi başlatdıq, prosesin necə inkişaf edəcəyi insanların da bu hərəkata dəstəyindən birbaşa asılı olacaq. Təbii ki, istənilən təşkilatlanmada çatışmayan yönlər olur. Əminəm ki, hərəkatın də hansısa çatışmayan yönləri mövcuddur. Bu barədə hər kəsin şəxsi mülahizəsi ola bilər. Ancaq əsas məsələ bu çatışmazlıqları zamanında kəşf edərək aradan qaldıra bilmək bacarığıdır. Əgər hərəkatın təşkilatlanmasında və ya siyasətində hansısa çatışmazlıqlar olacaqsa, bizlər tez bir zamanda o çatışmazlıqları təsbit edərək aradan qaldıracağıq. Hərəkatın yaradılması prosesi başlayanda burada olub sonradan bəzi texniki səbəblərdən rəhbərlikdə təmsil olunmayan partiyalara gəldikdə isə deyə bilərəm ki, onlar da bizimlədirlər. Hətta sonuncu tədbirin təşkilində də yaxından iştirak etdilər. Onların özləri də dəfələrlə bəyan ediblər ki, hələlik rəhbərlikdə təmsil olunmasalar da, üzərlərinə düşən öhdəlikləri canla-başla yerinə yetirəcəklər və hərəkatın uğuru üçün əllərindən gələn bütün fədakarlıqları edəcəklər. Yəni bir sözlə ifadə etsək . deyə bilərik ki, onlar da hərəkatla birlikdədirlər. İnanıram ki, çox yaxın gələcəkdə əsas məqsədləri demokratik, güclü, rifahlı və ərazi bütövlüyü təmin olunmuş Azərbaycan olan bütün partiya və təşkilatlar bu hərəkatın birləşdirici çətir altında toplaşacaq. Xalq bizlərdən fəaliyyət və qələbə gözləyir. Bizlərin isə bir daha xalqı xəyal qırıqlığına və ümidsizliyə düçar etməyə mənəvi haqqımız yoxdur. Hər kəs hər hansı bir addım atdıqda bu meyarı unutmamalıdır".

AXH-nin daha bir təmsilçisi, VİP sədri Əli Əliyev bunları dedi: "Xalq hərəkatının formalaşmasının birinci mərhələsini yekunlaşmış saymaq olar. Təbii ki, istənilən başlanğıc ideal olmur. Lakin hadisənin pozitivi xeyli çoxdur. Bu hərəkat müxalifətin bir hissəsinin pərakəndəliyinə son verə bilər. Ümidvaram ki, verəcək də. Bir sıra partiyaların kənarda qalmasını texniki yanlışlıq sayıram. Çalışmaq lazımdır ki, hələlik gözləmək qərarı vermiş dostlarımız bu işə qoşulsunlar. Ola bilsin ki, diqqət və yaxud hansısa digər səbəbdən baş vermiş anlaşılmazlıq böyük işə xələl gətirməsin. Yeni mərhələ başlayır. Hərəkat təşkilatlanmağa başlamalıdır. Ölkədə, regionda, dünyada da bunlar baş verir. Cəmiyyətdə gözlənti var".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Əli Kərimlinin yeni taktikası

## AXCP sədri gizli qrupda tərəfdarlarına tapşırıq verib

**Milli Şura yanvarın 26-da icazəsiz aksiya keçirib. Aksiyanın keçirilməsinə qurumun həmin gün "Məhsul" stadionunda təyin etdiyi mitinqə icazə verilməməsi səbəb olub. İcazəsiz aksiyada saxlanılanlar olub. Bu barədə Bakı Şəhər Baş Polis İdarəsi məlumat yayıb.**



Məlumatda deyilir: "Yanvarın 26-da, saat 15.30 radələrində 50-60 nəfərdən ibarət bir qrup şəxs "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini pozaraq Yasamal rayonu Mirəli Seyidov küçəsində toplaşıb küçə yürüşü keçirməyə cəhd edib".

Bildirilir ki, bu zaman həmin şəxslər ətrafdakıların diqqətini cəlb etmək, əhali arasında qorxu, vahimə yaratmaq, vətəndaşların istirahət hüquqlarının pozulması kimi qanunazidd hərəkətlərə yol verib ərazidə xidmətdə olan polis əməkdaşlarına qarşı tabesizlik göstəriblər. "Operativ həyata keçirilmiş qabaqlayıcı tədbirlərlə ictimai asayişin pozulması ilə müşayiət olunan qanunsuz küçə yürüşünün qarşısı alınıb. Aksiyanın 15 iştirakçısı saxlanılıb Yasamal rayon polis idarəsinə gətirilib, digərləri ərazidən uzaqlaşdırılıb. Saxlanılan şəxslərdən 10 nəfəri məhkəmə tərəfindən inzibati qaydada həbs edilib, 5 nəfər xəbərdar olunduqdan sonra sərbəst buraxılıb", - deyə rəsmi məlumatda qeyd olunur.

Həbs edilənlərin kimliyi açıqlanmır. Təkcə saxlanılanlardan AXCP üzvü Aqil Əliyevin adı məlumdur ki, onun da fotosu sosial şəbəkələrdə paylaşılır. A.Əliyev 20 sutka inzibati həbs cəzası alıb.

Saxlanılan cəbhəçilər barədə məlumatın verilməməsi barədə "Yeni Müsavat"a mötəbər mənbələrdən məlumat daxil olub. Məlumatda AXCP sədri Əli Kərimlinin yeni taktika seçdiyi deyilir. Bu taktika ilə Ə.Kərimlinin AXCP-nin gizli qrupunda xüsusi göstəriş verdiyi bildirilir. Göstəriş isə bundan ibarətdir ki, mitinq təyin ediləndə cəbhəçilər bu barədə sosial şəbəkələrdə məlumat paylaşmamalıdırlar, eyni zamanda, həbslər olarsa, saxlanılanların sayı, onların adları açıqlanmamalıdır. Bununla Kərimlinin insanlar, tərəfdarları arasında xofun yaranmasını istəmədiyi qeyd olunur.

Doğrudur, AXCP sədri son paylaşımında həbs edilən cəbhəçilərdən bəhs edib. O, son günlərdə məhkəmələr önündə, eləcə də, aksiyalarda həbs edilən və inzibatı cəza alan 28 cəbhəçinin fotosunu paylaşıb. Amma onların nə zaman, harada həbs edildikləri məlum deyil. Heç şübhəsiz ki, həmin fotoda 26 yanvarda keçirilən icazəsiz aksiyada saxlanılanların da şəkilləri yer alır. Bundan sonra da Ə.Kərimlinin bu taktikaya üstünlük verəcəyi deyilir.

Əslində bu deyilənlər 19 yanvar mitinqi ərəfəsində özünü göstərmişdi. Belə ki, ondan əvvəlki aksiyalarda mitinqlərin vaxtı təyin olunduğu andan etibarən cəbhəçilər sosial şəbəkələrdə kütləvi şəkildə kampaniyalar aparır, çağırışlar edirdilər. Amma 19 yanvar mitinqində bircə çağırışın, paylaşımın belə şahidi olmadıq. Yalnız ara-sıra Əli Kərimlinin canlı yayımlara çıxdığını gördük.

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 20 (7190) 28 yanvar 2019

**Azərbaycanda evləri satmaq öhdəliyi ilə kirayəyə vermə mexanizmi yaradılır. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyev "Yaşayış sahələrini satmaq öhdəliyi ilə kirayəyə vermə mexanizminin yaradılması haqqında" fərman imzalayıb. Fərman ölkədə əhalinin yaşayış sahəsi ilə təminatı mexanizmlərinin təkmilləşdirilməsi, şəxsi vəsaiti yetərli olmayan vətəndaşların yaşayış sahələrinə tələbatının ödənilməsi, satmaq öhdəliyi ilə kirayə hüquq münasibətlərinin inkişafının təmin edilməsi məqsədi daşıyır.**

# Kirayə qaldığınız evi ala biləcəksiniz - şərtlər və risklər

## Natiq Cəfərli: "Burada müəyyən problemlər də yaşana bilər, müştərilər diqqətli olmalıdırlar..."



Fərmanla "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun yaşayış sahələrini satmaq öhdəliyi ilə kirayəyə verməsi Qaydası" təsdiq edilib. Nazirlər Kabinetinə prezident aktlarının bu fərmana uyğunlaşdırılmasına dair təklifləri ni üç ay müddətində hazırlayıb prezidentə təqdim etmək, həmçinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib prezidentə məlumat vermək, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlamaq və bunun icrası barədə beş ay müddətində Prezidentə məlumat vermək, bu fərmandan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondu bu fərmandan irəli gələn məsələləri həll etməli, Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Nazirlər Kabinetinə məlumat verməlidir.

Bəs görəsən, yeni mexanizmlə sadə vətəndaşların ev alma prosedura necə baş verəcək? Bu proses hüquqi baxımdan necə tənzimlənəcək? Yeni mexanizmin ipoteka qaydalarından fərqi və üstünlüyü nədir?

"Yeni Müsavat"ın suallarını cavablandıran iqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, bu qərar tikinti ilə məşğul olan kommersiya qurumlarına uzunmüddətli müqavilə bağlamaq imkanları yaradır və nağd satışla bağlı hər hansı problem olacaqsa, kirayə ödənişi kimi müqavilələrin imzalanması və kirayənin sonunda mənzilin kirayənişinə verilməsi ilə bağlı müqavilənin mexanizmi hazırlanır, qanuni əsası yaradılır. Bunun nəticəsində də tikinti şirkətlərinin bu mexanizmdən istifadə edərək evlərin satılması ilə bağlı yeni öhdəlikləri yaranacaq. Ancaq burada müəyyən problemlər də yaşana bilər. Çünki şirkətlər bu tipli müqavilələrə üstünlük verərkən müştərilər daha diqqətli olmalıdırlar. Bağlanan müqavilələr hüquqşünasın iştirakı ilə incələnməlidir. Çünki şirkətlər gələcəkdə baş verəcək inflyasiyaların və devalvasiyaların öhdəliyini tamamilə vətəndaşın çiyninə qoymağa çalışacaqlar. Hər il inflyasiya olur, inflyasiya ilə bağlı indeksləşmənin aparılmasını müqaviləyə sala bilərlər. Gələcəkdə manatın dəyərdən düşməsi baş verərsə, yarana fərqi vətəndaşın üzərinə qoya bilər. Çünki söhbət böyük bir zaman kəsimindən, 3 ildən 25 ilə qədər bir müddətdən gedir. 3 ildə çox şey baş verə bilər, 25 ildə isə daha çox dəyişikliklərin olması, manatın məzənnəsinin dəyişməsi, inflyasiyanın sürətlənməsi ehtimalı da çoxdur. Ölkə iqtisadiyyatı neftdən asılıdır, neft bazarındakı bütün hərəkətlilik daxili maliyyə bazarına da təsir göstərəcək. Ona görə də bu tip müqavilələrin bağlanmasının hüquqi əsası yaradılması pozitiv bir haldır. Ancaq müqabilə bağlayarkən vətəndaşlar hüquqi yardım almalıdırlar. Müqavilədə baş verə biləcək devalvasiyalar və inflyasiyanın artması zamanı məsuliyyətin bölgüsü prinsipinə əməl edilməsi qeyd edilməlidir. Əgər bu məsuliyyət vətəndaşların çiynində olarsa, bu cür hallarda ödənişlərin artması baş verəcək. Bu isə bir müddət sonra vətəndaşların həmin məbləği ödəyə bilməməsinə gətirib çıxara bilər ki, nəticədə mənzillər onların əlindən alına bilər".

N.Cəfərlinin sözlərinə görə, burada müqavilə imzalanarkən ilkin ödəniş tələbi də qoyula bilər: "Müqavilə 3 ildən 25 ilə qədər bir müddətdə imzalana bilər. bakı şəhərindən orta hesabla bir mənzilin qiymətini 100 min manat götürsək və 3 ilə bölsək, bu aylıq 3000 manatdan çox bir vəsaitin ödənilməsi deməkdir. Azərbaycanda ay ərzində 3000-3500 manat ödəyə biləcək müştəri çox azdır. Çox güman ki, uzunmüddətli müqavilələr bağlanacaq. Bu səbəbdən müəyyən hissəsi ilkin ödəniş kimi ödənilə bilər. Məntiqi olaraq ipoteka kreditləri ilə ciddi bir fərqi yoxdur. Sadəcə, şirkətlər əvvəllər yalnız banklar vasitəsilə ipoteka müqavilələri bağlaya bilirdilərsə, indi birbaşa özləri də belə müqavilələr bağlaya bilərlər. Tikinti şirkətləri bankın iştirakı olmadan öz müştərisi ilə müqavilə bağlaya bilər. Əsas üstünlük bu prosedurların daha çevik və daha tez həyata keçirilməsidir. Ümumilikdə isə elə bir ciddi fərqdən söhbət getmir. Müştəri ilkin ödəniş də ödəyə bilər, mənzilin qiymətinin yarısını da başdan verə bilər. Əslində tikinti şirkətləri tərəfindən buna bənzər müqavilələr bağlanırdı. Lakin həmin müqavilələrin hüquqi təminatı zəif idi. Bu fərman artıq hüquqi təminat yaranır, müştəri ilə şirkətlər arasında münasibətlərin tənzimlənməsi prosedura yaradılır. Təkrar qeyd edirəm ki, bu məsələdə vətəndaşlar çox diqqətli olmalı, belə müqavilələr bağlayarkən vəkilin iştirakı ilə oxuyaraq müqaviləni imzalamalıdırlar".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Zamirə Hacıyeva sağa-sola səpələnən milyonların mənbəyini açıqlasa...

## Britaniya Məhkəməsi Azərbaycandan oğurlanan pulların geri - dövlətə qaytarılmasına da qərar verə bilər, amma...

**Böyük Britaniya hökuməti Azərbaycan Beynəlxalq Bankının keçmiş sədri, hazırda həbsdə olan Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyevanın sərvətinin qeyri-məlum mənbəsini açıqlaması üçün iki order təqdim edib. Zamirə Hacıyeva sağa-sola səpələdiyi milyonların mənbəyini hələ ki, izah etməyib. Onun 2 order üzrə izahat verməsi üçün 2019-cu ilin iyununa qədər zamanı var. İyunda məhkəmə qarşısına çıxarılacaq və izahat verməli olacaq. Əks təqdirdə əmlaklar Britaniya hökumətinin sərəncamına keçəcək. Z.Hacıyeva maliyyə vəsaitlərinin mənbəsini açıqlamaqdan imtina etməyə davam etsə, məhkəmə onun əmlakının, o cümlədən Londonun qərbində, Naytsbricdəki dəyəri 11,5 milyon funt-sterlinq olan malikanənin və Askotdakı dəyəri 10,5 milyon funt-sterlinq olan şəhərkənarı qolf klubun müsadirə edilməsi barədə hökm çıxara bilər.**



Britaniyada korrupsiyaya qarşı mübarizə qanununun ilk hədəfi olan Z.Hacıyeva on il ərzində Londonun məşhur dükanı Harrods-da 16 milyon funt sterlinq (35.85 milyon manat) xərcləyib. Bu günə qədər məlum olan odur ki, ödənişlərin edildiyi 35 kredit kartı Cahangir Hacıyevin 14 il başçılıq etdiyi Beynəlxalq Banka məxsusdur. Bu gün Cahangir Hacıyev həbsdədir. Rəsmi məlumatlara görə, C.Hacıyev başqaları ilə qabaqcadan əlbir olub mütəşəkkil qrup yaradaraq özünün, ailə üzvlərinin və digər şəxslərin adına kart hesabları açıb və həmin hesablara külli miqdarda pul vəsaitlərinin köçürülməsi barədə qanunsuz göstərişlər verib. Məhkəmə qərarına görə, C.Hacıyevin göstərişi ilə yaradılan qruplaşma üzvləri bankdan 10 ədəd plastik kart vasitəsilə milyonlarla manatı faizsiz kredit adı altında çıxarıblar.

Azərbaycanın hüquq-mühafizə orqanları hələ 2016-cı ilin yayında Z.Hacıyevanın da əri Cahangir Hacıyev kimi mənimsəmədə ittiham olunduğunu bəyan edib. Məhkəmənin hökmünə görə, Zamirə Hacıyeva və digərləri mütəşəkkil cinayətkar qruplaşma yaradıb. Qruplaşmanın Beynəlxalq Bankın talanmasında iştirak etdiyi iddia olunur. Hacıyevaya qarşı cinayət işi başlansa da, həbsi mümkün olmayıb. Çünki o, ölkəni hələ 2014-cü ilin noyabrında tərk edib.

Məhkəmə habelə C. Hacıyevdən 63 milyon 80 min manat tutularaq, Beynəlxalq Banka verilməsi, ona məxsus olan dəyərli qol saatının və sikkə pulların müsadirə olunması barədə hökm çıxarıb. Zamirə Hacıyeva isə 4 ildən çoxdur ki, Böyük Britaniyada yaşayır. Bu ölkənin Daxili İşlər Nazirliyi ona Britaniyada varlı sahibkarlar üçün nəzərdə tutulmuş viza ilə yaşamaq icazəsi verib. 2 il öncə ailənin vəkili Aqil Layıcov bankirin xanımının yaxalanıb geri tirilməsi məqsədilə Londona xüsusi əməliyyat qrupu göndərildiyini demişdi. Sonradan Cahangir Hacıyev də bu məsələyə kinayəli reaksiya verərək həmin uğursuz əməliyyata münasibət bildirmişdi.

Z.Hacıyevanın mülk almaq üçün saxtakarlıqla mənimsənilən pullardan istifadə etdiyi barədə Britaniyanın Ali Məhkəməsi təsdiq qərarı çıxararsa, o zaman ondan alınacaq pul və mülklər Azərbaycana qaytarıla bilər. Bu haqda Britaniyanın Milli Cinayət Agentliyinin rəsmisi Donald Toon açıqlamasında bildirmişdi. Qeyd etmişdi ki, Britaniyanın İzahedilməyən Sərvət Sərəncamı (UWO) altında Ali Məhkəmənin qərarı ilə müsadirə olunmuş pul "siyasi və beynəlxalq məsələyə" çevrilə bilər: "İlk növbədə, həmin aktivlərin dəyəri Böyük Britaniya hökumətinə daxil olacaq, sonra pul mənbəyinin ölkəsi - yəni Azərbaycan və Britaniya arasında repatriasiyanin miqyası barədə birbaşa əlaqə qurulacaq".

Z.Hacıyeva mənbəni açıqlaya bilsə, Londondakı mal-mülkün biznesdən qazanıldığını təsdiqləyən məlumatları ortaya çıxarsa, bu halda həmin əmlaklar Hacıyevlərin sərəncamında qalacaq. Üzərindən həbs götürüləcək.

Amma gedişat onu deməyə əsas verir ki, Zamirə Hacıyeva belə məlumatlara malik deyil, əks təqdirdə məsələ aylarla davam etməzdi. Digər tərəfdən Z.Hacıyevanın belə məlumatları Britaniyanın Ali Məhkəməsinə təqdim etməsi sonradan Azərbaycanda C.Hacıyevin də barəsində çıxarılacaq məhkəmə hökmünə təsir etmək gücündədir.

Əslində, Azərbaycanda Cahangir Hacıyeva qarşı başlanmış cinayət işində Zamirə Hacıyeva də təqsirli bilinir. Amma o istintaqdan gizləndiyi üçün tutulması bugünədək mümkün olmayıb. Ona qarşı Cinayət Məcəlləsinin mənimsəmə və israf etmə maddələri üzrə ittihamlar irəli sürülüb. Bu maddəyə görə 7 ildən 12 ilədək həbs cəzası nəzərdə tutulur.

Həbs qəti imkan tədbiri haqda qərarı baş prokurorun müavini Rüstəm Usubovun təqdimatı əsasında Bakının Nərimanov Rayon Məhkəməsi çıxarıb. Qərarda deyilir ki, Zamirə Hacıyeva əri Cahangir Hacıyevin Azərbaycan Beynəlxalq Bankının rəhbəri olduğu dövrdə bankın "Mərkəz" filialının ayrı-ayrı vaxtlarda müdirləri olan Anar Sultanov və Yusif Ələkbərovdan, filialın müdir müavini, daha sonra müdiri olmuş İlham Abdullayev, "Nəqliyyat" filialının müdiri Kənan Orucovdan, "Nərimanov" filialının müdiri Məmməd Cahangirovdan, eləcə də onun yaxın dostu Azad Cavadovdan və digərləri ilə mütəşəkkil cinayətkar qruplaşma yaradıb. Qruplaşmanın Beynəlxalq Bankın "talanmasında" iştirak etdiyi iddia olunur. Bankdan mənimsənilən pullarla Zamirə Hacıyeva və ailə üzvlərinin təyyarə biletləri, zinət əşyaları alındığı, təhsil haqlarının ödənildiyi, Avropanın dəbdəbəli istirahət mərkəzlərində istirahət etdikləri, gözəllik salonlarında, restoranlarda xərcləndiyi iddia edilib.

İqtisadçı ekspert Əkrəm Həsənov deyir ki, Zamirə Hacıyeva istəsə belə Londonda sağa-sola xərclənən pulların, əmlakların əldə olunmasına xərclənmiş pulların mənbəyini açıqlaya bilməz. Çünki həmin pullar biznesdən əldə olunan gəlir deyil.

Ekspertin sözlərinə görə, Zamirə Hacıyeva əvvəlki kimi desə ki, pulları həyat yoldaşı ona verib, bu halda Cahangir Hacıyev həmin pulların mənbəyini açıqlamalıdır. Təbii ki, bank müdiri bu qədər pul qazana bilməzdi, onlar dövlətdən oğurlanan vəsaitlərdir.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 20 (7190) 28 yanvar 2019



# İnqilab təqlidi sevməz

Xalid KAZIMLI

**Ən azı 25 ildir bu mövzularda yazırıq. Demokratikləşmə, azadlıqlar, insan haqlarına riayət, haqq-ədalətin bərpası, şəffaflıq, qanunun aliliyi və sair mövzularda yazılan məqalələrin ardı kəsilmir - çünki aktualdırlar.**

Hakimiyyət məsələsi, iqtidar-müxalifət münasibətləri də siyasət yazarlarının əbədi mövzularındandır.

Zaman-zaman demokratiyaya keçidin tədrici, yoxsa inqilabi yolla baş verməsinin məqsədəuyğunluğuna dair müzakirələr qızışır.

Ancaq bu mövzularda yazarkən və ya danışarkən, realist, obyektiv, cürətli olmaq lazımdır. Mövcud durumu təhlil edərkən azacıq o yan-bu yana sapma dürüst nəticələr çıxarmağa imkan verməyəcək. Bir siyasi liderin dediyi kimi, acı reallıqla barışmasan da, hesablaşmağa məcbursan.

Bu ölkədə gerçəklik budur: çoxlu problemlər var. Kasıbçılıq desək, var. Xalqın bir xeyli hissəsi maddi sıxıntılar içində yaşayır. Düzdür, heç kəs acından ölmür, ancaq Avropa ölkələrinin kasıbları ilə bizim ölkənin yoxsulları arasında fərq böyükdür. Çünki standarttlar fərqlidir.

İşsizlikdən bəhs etsək, o da var. Xüsusilə ali təhsilli şəxslərin, gənc məzunların işlə təmin olunması məsələsi problemlidir. Bu üzdən xarici ölkələrdə özünə gün-güzəran qurmaq istəyənlərin sayı günbəgün artır.

Demokratiya və azad seçkilər sahəsində problemlər illərdir ki, qalır. Hətta bu xüsusda "irəliyə doğru addım" atılmaması bir yana, mövcud durumun pislənməsi təmayülü müşahidə olunur.

Korrupsiya və rüşvətxorluğun, büdcə talançılığının miqyasından uzun-uzadı danışmağa dəyməz. Son illərin qalmaqallı məhkəmə prosesləri ("MTN işi", "Rabitə işi", "Beynəlxalq Bank işi" və s.) də göstərdi ki, dövlət büdcəsinin talanması nə dərəcədə şiddətli imiş.

İqtisadiyyat da inhisarçılıq, azad sahibkarlığın önündəki bürokratik əngəllər və sair bu kimi problemlərin mövcudluğunu isə, yaxşı ki, heç kəs danmır. Bütün bunlar, təbii ki, ölkənin yetkin əhalisində narazılıq doğurur. Ancaq baxaq, görək, bu narazılıq, öz durumundan qeyri-məmnunluq hansı həddədir?

Bu, klassik inqilabçıların olduqca dəqiq şəkildə təsbit etdiyi inqilabi situasiyanın komponentlərinə cavab verirmi? İş ondadır ki, öz halından narazı olanların kütləvi şəkildə meydana çıxması, etiraza qalxmasına rəvac verəcək situasiya yoxdur.

Zatən, elə bir situasiya yetişmiş olsaydı, insanlar heç bir repressiyaya, qadağalara baxmaz, öz iradələrini ortaya qoyardılar. İnqilab baş verən ölkələrin heç birinin rejimi heç də məxmər kimi yumşaq deyildi, əksinə, çox sərt idi, ancaq bu, hiddətlənmiş xalqın önünü kəsmədi.

Ümumilikdə götürdükdə isə xalqın kütləvi şəkildə meydana çıxmasını şərtləndirən amillərdən ən başlıcaları yoxsulluğun ifrata çatması, sabaha ümidin puç olması, xalqın öz gələcək taleyindən bədgüman vəziyyətə gəlməsidir.

İnsanlar adətən öz həyatlarına və gələcək aqibətlərinə ciddi təhlükə yarandığı halda kütləvi şəkildə həyəcanlanırlar. Onlar əmin olanda ki, idarə edənlər əvvəliki kimi idarə edə bilmirlər, məhz o zaman özləri də əvvəlki kimi idarə olunmaq istəmirlər. Kütləvi itaətsizliyin başlandığı andan etibarən hər şey dağıdıcı xarakter alır.

Hər bir ölkədə müvafiq durumun yaranmasının özünəməxsus səbəbləri olur. Bu kimi durumlarda bir qayda olaraq "xarici barmaqlar"dan danışmaq da yayğındır, amma illərin təcrübəsi göstərir ki, daxili sabitliyi möhkəm olan ölkələrdə "xarici barmağı"ın rolu həlledici olmur, qısa müddətə o "barmağı" qırmaq mümkün olur.

Bu baxımdan yaxın, uzaq ölkələrdə inqilabi hərəkətlənmələr başlayanda dərhal eyforiyaya qapılmaq, "o əjdaha bizə də gəlməlidir" deyə öz-özünü vəcdə gətirməyin yeri yoxdur. Bu, özünü aldatmaqdır.

İnqilabi situasiya elə şeydir ki, onu süni şəkildə yetişdirmək çox çətindir, gərək özü yetişsin. Həm də onun yetişməsində müxalifətdən çox iqtidarın rolu (əsasən səhvləri) olur. Hansısa qüvvələrin xalqı qızışdırması, qığılcımdan alov doğurması üçün gərək tutarlı səbəblər olsun. Çünki inqilab təqlidi sevməz.

Könül istər ki, Azərbaycanın bütün sferalarda olan problemləri dinc yollarla həll edilsin. Kimsə çıxıb "bizim heç bir problemimiz yoxdur" deyə əminliklə bəyanat verəcəksə, mövcud problemləri həll etmək yerinə, həll bir onları danacaqsa, bu, artıq daha böyük problem deməkdir və sözügedən situasiyaya dəvətnamə göndərməkdir.



# Gürcüstanda erməni terrorçuya büst qoyulması olayı böyüyür

## Məsələdə "Moskva izi" iddiası ortaya çıxdı; Gürcüstan-Azərbaycan strateji müttəfiqliyinə yenidən baxıla bilər...

**Axalkalaki rayonunun Buqaşeni kəndində "Kobra" ləqəbli Mixail Avaqyana büstün qoyulması Tiflislə Bakı arasında diplomatik gərginliyə, habelə Azərbaycan ictimaiyyətinin və KİV-lərinin kəskin reaksiyasına səbəb olub. Mixail Avaqyan həmin kənddə anadan olub, Ermənistanda yaşayıb və Qarabağ müharibəsi zamanı Qubadlı, Cəbrayıl, Füzuli rayonunun işğalında, habelə Xocalı qətliamında iştirak edib. 1994-cü ildə Horadiz döyüşləri zamanı öldürülüb.**

Gürcüstan XİN isə məsələ ətrafında ajiotaj qaldırmamağa çağırıb, bildirib ki, rəsmi Bakı ilə kommunikasiya qurulub və izahat verilir. Lakin buna baxmayaraq, məsələdə ermənilərin xeyrinə açıq mövqe ifadə edənlər də var. Belə ki, virtualaz.org saytının məlumatına görə, Gürcüstan İctimai Televiziyasının reportajına istinadən Rusiyanın "Vzqlayd" qəzetinin Tiflisdəki müxbiri bildirib ki, Gürcüstanın ermənilərin kompakt yaşadığı Samtsxe-Cavaxetiya bölgəsində Qarabağda dinc azərbaycanlıların qətlində iştirak etmiş erməni Mixail Avaqyana heykəl qoyulması Rusiyanın maraqlarına uyğundur.

Məlumata görə, reportajda deyilir ki, Avaqyana heykəl qoyulmasına görə Bakı ilə Tiflis arasında diplomatik qarşıdurmanın yaranması ancaq Moskvanın işinə yarayır. Kanalın respondentləri deyirlər ki, Rusiya etnik azlıqların məskunlaşdığı bölgələrdə gərginliyin meydana çıxmasında, beləliklə də Gürcüstana əlavə problemlər yaranmasında maraqlıdır.

Hakim "Gürcü arzusu" koalisiyasının parlament fraksiyasının rəhbəri Mamuka Mdinaradze isə telekanala deyib ki, büstün qoyulması "mərkəzi hakimiyyətlə razılaşdırılmayıb. Azərbaycan ictimaiyyəti, politoloqlar isə məsələni kəskin şəkildə qınayıb, bunu ermənipərəst qüvvələrin işi olduğunu söyləyirlər. Bildirilir ki, Gürcüstan təcili olaraq həmin abidənin götürülməsinə çalışmalıdır,

"Yeni Müsavat"a danışan Borçalı İctimai Cəmiyyətinin sədri Zəlimxan Məmmədli bildirdi ki, bu, bölgədə sabitliyi pozacaq bir addımdır: "İlk olaraq deyim ki, cəmiyyətimiz adından rəsmi açıqlama verib, bunu iki dövlətin, xalqın maraqlarına uyğun olmayan, bölgədə sabitliyi pozacaq bir addım kimi dəyərləndirmişik. Azərbaycan-Gürcüstan strateji müttəfiqliyindən çox danışırıq. Lakin indiki gürcü iqtidarının bir çox xətaları var. Millətimizə qarşı "ikili standart"larla yanaşma elementləri görürük. Həmçinin strateji müttəfiqlikdən sapma hallarını da müşahidə olunur. Görünür ki, Gürcüstan hakimiyyətinin özündə anti-Azərbaycan, gizli anti-türk ovqatı var. Xocalı soyqırımına əsrin faciəsi deyirik, dünyada Xocalıya ədalət kampaniyaları keçiririk. Bəs nə üçün Gürcüstan kənarda qalıb? Bu sualı Azərbaycan rəsmilərinə, xarici işlər nazirinə verməK lazımdır ki, nə



üçün Gürcüstanda ermənilərin törətdiyi Xocalı soyqırımı ilə bağlı vahid mövqe yoxdur. Görünür, günah özümüzün yanlış siyasətimizdə, dostumuzla düşmənimizin düzgün müəyyən edilməməsindədir. Soyqırmı törədənlərə "ehtiram" nümunəsi göstərmək, terrorist birinin Axalkalakidə abidəsinin qoyulması və abidənin açılışının isə məhz 20 yanvar gününə təyin edilməsinin mədəni, diplomatik adı yoxdur. Bu tərbiyəsizlikdir, Xocalı şəhidlərinin ruhuna təhqirdir, Azərbaycana sataşmaq deməkdir. Gürcüstan və Ermənistan qonşu dövlətlərdir və onların da öz maraqları var. Görünür ki, bu iki dövlət öz maraqlarını daha ciddi formada uzlaşdıra bilirlər. Azərbaycana zərbəni Ermənistan, erməni düşüncəsi məhz Gürcüstan vasitəsilə vurur. Bu isə təbii ki, bölgədə stabilliyi pozmaq üçündür. Ola da bilər ki, burada gözə görünməz bir "Moskva əli" də var. Gürcüstanın Avropaya inteqrasiyasını tormozlamaq, Cənubi Qafqazda yeni konflikt yaratmaq üçün də bu cür addım ata bilərlər. Rəsmi Gürcüstanın da bu işdən xəbəri var və görünür ki, bilərəkdən ediblər. Hətta bəyanat da veriblər ki, Azərbaycan tərəfi ilə razılaşdırılıb".

Z. Məmmədli hesab edir ki, Gürcüstanın bəyanatlarına Azərbaycan tərəfi rəsmi qaydada cavab verməlidir: "Onların "razılaşdırmışıq" bəyanatına ölkənin müvafiq şəxsləri, qurumları mövqe ifadə etməlidir. Bunun doğru olub-olmadığı ortaya çıxmalıdır. İndiki halda bu abidənin sökülməsi istiqamətində iş qurulmalıdır. Kimlərsə deyirlərsə ki, biz də orada qəhrəmanlarımızın abidəsini qoyaq, məncə bu, doğru deyil. Biz bəyəm orada abidə yarışına girib, içərimizi soyudacağıq? Ona görə də abidə ya oradan götürülməlidir, ya da Azərbaycan və Gürcüstanın strateji müttəfiqliyinə yenidən baxılmalıdır. Çünki bu, ciddi şəkildə siyasi gərginliyə yol açan bir məsələdir. Gürcüstan da buna bir aydınlıq gətirməlidir. Bildirməlidir ki, Xocalı soyqırımı ilə bağlı mövqeyi nədir və bu vandalizm aktını tanıyırmı? Təsəvvür etsinlər ki, biz Gürcüstana təcavüz edib, minlərlə gürcü əsgərini qıran rus qoşunlarının şərəfinə Qaxda abidə ucaldırıq. Belə anormallığı, şərəfsizliyi biz edə bilmərik. Ancaq görünür ki, qonşularımız bunu edə bilirlər. Onlar Borçalı İctimai Cəmiyyətinin Elat bayramı kimi mənəvi yükü ağır olan bir bayramı da əngəlləyə bilirlər. Azərbaycan da susqunluq göstərib, onların kilsələlərinə qaz çəkər. Azərbaycanda milli təfəkkür aparıcı olmayana qədər, bizimlə bu cür davranacaqlar. İran da belə davranacaq, Rusiya da, Ermənistan da. Necə ki, davranırlar. Birinci öz içərimizdə milli mənəvi dəyərlərin möhkəmlənməsinə çalışmalıyıq. Gürcüstanda bizim də abidə qoymağımız təkliflərini adekvat hesab etmirəm. Abidə mütləq anlamda sökülməli, bu abidəyə rəvac verən məmurlar məqsədyönlü şəkildə etnik-dini qarşıdırma yaratmaq cəhdlərinə görə məsuliyyətə cəlb edilməlidirlər".

❑ Əli RAİS,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 20 (7190) 28 yanvar 2019

**Ötən həftənin şənbə günü yanvarın 19-da elan olunmuş Azərbaycan Xalq Hərəkatının (AXH) təsis konfransı keçirildi. Yayılmış xəbərlərdə bildirilir ki, tədbirə 20-dən çox siyasi partiya rəhbəri və 300-ə yaxın iştirakçı qatılıb. Amma ölkənin bir sıra müxalifət partiyalarını, iddialı liderlərini tədbirdə görmədik. Ötən onilliklərdə Azərbaycanda bir sıra birliklər yaranıb, lakin ömrü uzun olmayıb. Xalq Hərəkatının məram-məqsədi barədə KXCP sədri Mirmahud Mirəlioğlu ilə danışdıq.**

# "Müxalifətdə nə çalınsa da "Heyvagülü" oynayacağam" deyənlər var"

## Mirmahmud Mirəlioğlu: "30 il əvvəlki xalq hərəkatı ilə indikinin arasında böyük fərqlər və oxşarlıqlar var"



***- Mirmahmud bəy, Azərbaycan Xalq Hərəkatının yaradılması hansı zərurətdən ortaya çıxdı?***

-Birinci ondan başlayaq ki, nədən buna ehtiyac oldu? Bu ehtiyacın olmasının əsas səbəbi Azərbaycan problemləridir, Qarabağ problemi və ölkəmizin hazırki vəziyyətidir. Bunlar əsasnamədə də nəzərdə tutulub. Azərbaycanın strateji əhəmiyyəti, dünyada mövqeyi, bugünkü vəziyyəti hər kəsə bəllidir, iqtidara da, müxalifətə də. Azərbaycanın indiki halda əşhədü-ehtiyacı var ki, onun insanları bir arada olsun, bütün enerjilər məqsəd, hədəfə doğru toplansın və konkret hədəf də Azərbaycan problemlərinin həlli olsun. Burada Qarabağ probleminin həlli də burada vacib məsələdir. Həmçinin xaricdən və daxildən Azərbaycan dövlətçiliyinə qarşı olan münasibətə konkret mövqe bildirilməlidir. Bu mövqe də dövlətçilik mövqeyi, problemlərin həlli istiqamətində olmalıdır. Bu məsələ uzun müzakirələrdən keçib. Xüsusilə də Qarabağ Komitəsindəki müzakirələrdən sonra nəhayətdə siyasi partiyaların bir araya gəlməsindən ötrü görüşlər, müzakirələr aparıldı və sonda Azərbaycan Xalq Hərəkatı adı ilə təsis olunan qurum meydana gəldi.

***-2019-cu ilin Xalq Hərəkatı ilə 80-ci illərin sonlarında meydanlarda yaranan xalq hərəkatı arasında nə kimi fərqlərin olduğunu düşünürsünüz?***

-30 il bundan qabaqkı Xalq Hərəkatı ilə indikinin arasında həm böyük fərqlər və həm də oxşarlıqlar var. Fərqlərdən biri budur ki, onda milli azadlıq hərəkatı ciddiliyi ilə imperiyaya qarşı idi, azadlıq hərəkatı idi. Bu azadlıq hərəkatında hamı bir arada idi, onda daha iqtidar-müxalifət söhbəti də yox idi. Onda sovet nomenklaturası var, postsovet məkanında baş verən proseslər, Azərbaycana qarşı yönəlmiş 70 illik siyasət var idi. Ona görə də hamı bir arada idi, bu, milli azadlıq hərəkatı idi. Orda olan insanların əksəriyyəti bu gün burda təmsil olunmaqdadır. Yəni həmin insanlar yenə də bir aradadırlar və onların da 30 ildə keçdiyi yol, mövqe, münasibətlər, özlərinin fəaliyyətləri ilə yazdıqları tərcümeyi-hallar var. Bu adamların bir-birinə münasibəti, axan sular, keçən tarix zahirən bunları bir araya gətirməyi mümkünsüz hesab edir. Amma indi Azərbaycandakı hazırki durum, vəziyyətlə bağlı, istək və arzuları gerçəkləşdirməklə əlaqədar bir arada olmağın vacibliyi var. Ona görə də bunun həm oxşar, həm də fərqli cəhətləri var. Onda imperiya idi, indi müstəqil Azərbaycan dövlətidir. İmperiya zamanında aldığımız azadlıqların bəziləri bərpa olunub, bəziləri yox, amma əvəzində torpaq itkisi ilə üzləşmişik. Dünyada baş verən proseslər, Azərbaycana münasibət var. Azərbaycanın düşmənlərinin birliyi var, Azərbaycan vətəndaşlarının və dostlarının da birliyi mütləq və mütləq olmalıdır. Yəni bu düşmən birliyinə qarşı Azərbaycanın daxilində də bu birlik olmalıdır. Təbii ki, burada başqa məsələlər, sosial ədalətsizlik, yerinə yetirilməyən məsələlər, daxildə yürüdülən siyasət və s. amillər də var.

***-Qeyd etdiniz ki, 30 il əvvəl hərəkatda təmsil olunanlar yenə də bir aradadır. Amma biz təsis toplantısında onların bir çoxunu, partiya rəhbərlərini görmədik. Müsavat, AXCP və digərlərinin iştirak etməməsi nə ilə bağlıdır?***

-Bu işin içində olan İsgəndər bəyin və ya digərlərinin bu məsələyə aydınlıq gətirməsi daha yaxşı olar. Çünki onlar bu istiqamətdə həm iş görüblər, həm də konkret görüşlər keçiriblər. Mənim bildiyim budur ki, hamıya istisnasız şəkildə müraciət olunub, həm də hamı ilə görüşlər keçirilib. Amma cavablar nədir, onu yalnız görüş keçirənlər bilir. Bu, mənim cavab verə biləcəyim sual deyil. Ona görə ki, bu məsələdə mənim bilgim detallı deyil. Amma başqa məsələlərlə bağlı bildiklərim var: məsələn, Ümid, ADP bu prosesin əvvəlində var idi. Amma bir sıra məsələlər reallaşmadığına, anlaşma olmadığına görə onlar bu gün orda müşahidəçi kimi iştirak edirlər. Özləri cavab versə, daha doğru olar. Bir qisim partiyalar da var ki, onların məsələlərə münasibəti kəskin və net şəkildə ortadadır. O da hər kəsin haqqıdır. Bir qisim adamlar da var, bu gün burdadırlar və iclasda çıxış edəndə də yenə də bəlli oldu ki, bəziləri düzələn deyillər, "qozbeli qəbir düzəldər". Yaxud "sən hansı havanı çalırsan-çal, mən "Heyvagülü" oynayacağam" deyənlər var. Yəni dəyişməyən adamlar var. Amma mövqelər, münasibətlər dəyişməlidikcə, Azərbaycanda böyük, güclü dəyişikliklərə nail olmaq mümkün deyil. Mən bunların ötəri olacağını düşünürəm. İnşallah, hər şeyin fövqündə durmağı bacaracağıq.

***-Amma bu da var ki, birinci hərəkatdan keçən dövr ərzində bu qüvvələr arasında dəfələrlə birlik təşəbbüsləri olsa da, sonda parçalanmalar, qarşılıqlı ittihamların şahidi olmuşuq. Onları yenidən bir araya gətirmək real görünürmü?***

-Bir araya gələ bilənlər gələ biləcəklər, orda bir problem olmayacaq, amma gələ bilməyənlərdən də ötrü narahat olmağa dəyməz. Ona görə ki, əslində Milli Azadlıq Hərəkatından üzü bəri, 30 il müddətində keçilən yola baxış olsa, görünər ki, elə Azərbaycan, dövlətçiliyimiz uğrunda milli mücadilə aparanlar, imperiyaya qarşı çıxanlar həm də Azərbaycanın taleyini yaşamalı oldular. Tərcümeyi-hallar da Azərbaycan taleyinə oxşadı, param-parça oldu. Cəbhə ayrıldı, vaxtından əvvəl yeni partiyalar yarandı, bəzi ayrılmalar bir az sonra olmalı idi. Milli hökumət zamanında, ona qədər olanlar, yeni yaranan siyasi partiyalar, buradakı münasibətlər və s. ortadadır. Amma bütün bunların hamısı o demək deyil ki, bu münasibətlər, bu ayrılmalar əbədi, uzunmüddətli, yaxud hər bir siyasi partiya liderinin ömrünün sonuna qədər olmalı olmalıdır. Mən bu fikirdən uzağam və hesab edirəm ki, böyük və ciddi dəyişikliklər üçün bu dəyişmələr də olmalıdır. Bu yanlış yanaşmalarda da mütləq və mütləq bir inkişaf, dəyişiklik olmalı, yanlışlıqlar aradan qaldırılmalıdır.

***-Qeyd etdiniz ki, hərəkat Qarabağ məsələsinə önəm verir. Azərbaycanda Qarabağ məsələsinə münasibətdə iqtidar-müxalifət məsələsi olmayıb. Amma son zamanlar hətta düşərgələri birləşdirən yeganə mövzuya münasibətdə də parçalayıcı cəhdləri müşahidə edirik. Bu, sizi narahat edirmi?***

-Məncə, bu, olmayacaq. Epizodik məsələlər var. Necə ki, aydınlıq qabağı, hava düzələn ərəfədə sis-duman olur. Bunlar ötüb-keçəcək. Yeni Azərbaycan naminə, Qarabağ problemi naminə 1993-cü ildə, iyun qiyamından sonra belə, Əbülfəz Elçibəyin, yəni o zaman qiyam nəticəsində devrilmiş hakimiyyətin birinci şəxsinin özünün təklifi ilə - özü Kələkidə olarkən - hələ iyul ayının axırlarına doğru qərar verildi. AXC-nin İcraiyyə Komitəsində qərar qəbul olundu ki, Qarabağ probleminin aradan qaldırılması, işğalın nəticələrinin aradan qaldırılması ilə bağlı iqtidar-müxalifət məsələsi olmayacaq, ola da bilməz və burada vahid mövqe olmalıdır. Bizim həmin qərarımız dəyişməz qərardır. Biz bunu öz təşkilatımıza aid edirik. Məncə, bu, hər kəsdə, bütün siyasi qurumlarda var. Amma bundan sui-istifadə edən adamlar mövcuddur. Yəni hakimiyyətin ayrı-ayrı qollarında bu adamlar var, məsələyə baxışları fərqlidir. Azərbaycan diplomatiyasında, Azərbaycanın daxili siyasətində bu məsələyə baxış bir az fərqlidir. Yəni bəzi hallarda baxışlar bir-birinə uyuşmur, o cümlədən iqtidar-müxalifət münasibətlərində də...Bu birləşdirici məsələ hələlik siz dediyiniz kimi, hələlik fikirayrılıqlarına gətirir, məncə, əməl ayrılıqlarına gətirməyəcək. Nə üçün? Sabah Vətən müharibəsi, ümumi səfərbərlik elan olunsa, müharibə çağırışı olsa, burada artıq kimliyindən asılı olmayaraq, Azərbaycan vətəndaşının bu səfərbərlikdən, bu çağırışdan kənarda durması mümkün deyil. Fərmanı kimin imzalamasından, Ali Baş Komandanın kim olmasından asılı olmayaraq, "Vətən dardadır", "Vətəni azad etmək lazımdır" deyiləcək və burada daha dartışma olmayacaq. Uzaqbaşı müharibə zamanının diktə etdiyi qanunlar olacaq, bu da elə ciddi problem deyil. Bu gün sadəcə olaraq diskussiyalar var deyə, müzakirələrdə vahid mövqeyə gəlməkdən ötrü dartışmalar olmalıdır. Amma bundan sui-istifadə edərək problemin həllinə heç bir yardım etmədən, təsir göstərmədən, həm barmağı barmağa vurmadan fəaliyyət göstərmək ancaq söz toqquşdurmaqdan başqa bir şey deyil. Bu sahədə də bəzi siyasətçilər, xüsusilə millət vəkilləri var ki, bunlar bəzən özləri də fərqində olmadan bəzi fikirləri irəli sürürlər, özlərindən müştəbeh yanaşmalar edirlər. Bu da istər-istəməz Azərbaycan insanını çaşdırır. Sanki bu adamlar birbaşa hökumətin, dövlətin mövqeyindən çıxış edirlər. Elə bir saat sonra artıq ortalıqda net mövqe, addım olanda görürsən özləri də çaş-baş qalırlar, bilmirlər ki, nəyi necə desinlər, hansı fikirlərini redaktə edib xalqa çatdırsınlar.

***-Yeni hərəkatın planlarına kütləvi aksiyalar da daxildirmi?***

-Bu hərəkat hələlik formalaşma dövründədir. Təbii ki, kütləvi aksiyalar da nəzərdə tutula bilər və nəzərdə tutulur. Amma bu məsələ ilə bağlı qərarlar konkret günə, saata və şəraitə bağlıdır. İndi bu haqda danışmaq tezdir.

***-Milli Şuranın təşəbbüsü əsasında keçirilən mitinq və növbəti aksiyaya icazə verilməməsi ilə bağlı qarşılıqlı ittihamlar səngimir. Siz həmin aksiyada iştirak etməsəniz də, yəqin ki, bu müzakirələrlə bağlı fərdi yanaşmanız var. Siz bu polemikalarda Qarabağla bağlı aktivliyin yarandığı bir ərəfədə ölkəmizi xaricdən qarışdırmaq istəyən qüvvələrin olması haqda fikirlər barədə nə deyə bilərsiniz?***

-Məncə, "xaricdən və daxildən qarışdırmaq istəyən qüvvələr var" deyənlərin özü qarışdırıcıdır. Nə üçün? Ona görə ki, bunu kimin deməsindən asılı olmayaraq - bu fikri daha çox iqtidar nümayəndələri deyir - onlar Azərbaycan dövlətçiliyinin, Azərbaycan dövlətinin və bugünkü iqtidarın zəifliyinin göstəricisi kimi çıxış edirlər. Yəni biz o qədər zəifik ki, adicə işləri görə bilmirik, ona görə də ehtiyatlanırıq, xaricdən bu planları hazırlayanlar var. Bunu deyənlərin özləri qarışdıranlardır, məsələnin kökü budur. Milli Şuranın keçirtdiyi tədbirə gəldikdə, o, Mehman Hüseynovla bağlı idi. Bu məsələdə artıq addımlar atılıb, işlər görülüb. Heç kəs bu məsələnin əleyhinə olmayıb. Hətta hökumət mitinqə icazə verib, mitinq də keçirilib. 29 sentyabr 2018-ci ildə də Qarabağla bağlı mitinq keçirildi, ardınca 27 gün qabaqdan cavab verildi ki, növbəti mitinqə icazə verilmir. Biz indi onun məhkəmə işləri ilə məşğuluq, bu prosesin növbəti mərhələsindəyik. Bakı Şəhər İcra Hakimiyyəti özü də qanunları bilmədən bu məsələyə münasibət bildirdi və Qarabağla bağlı aksiyaya icazə verilməyib. Son məsələyə gəldikdə, bildiyimə görə, icra hakimiyyəti ona da icazə verməliydi. Verməyib, qanunu pozub. Ayrı-ayrı strukturlarda olan adamlar bilmədən bəzi məsələləri qarışdırırlar, öz hüquqlarını bilmədən, yaxud səlahiyyət həddini aşırlar. Bunlar ölkədə narahatedici məsələlərdir və doğru məsələlər deyil. Qarşılıqlı ittihamlar isə nə qədər ki, qarşı-qarşıya durmalar var, o qədər də davam edəcək, hər kəs öz arqumentini doğru sayacaq. Bu da müsbət nəticəyə gətirən məsələ deyil.

***-Mirmahmud bəy, yeni hərəkat hakimiyyətlə dialoqa başlanılması məsələsinə necə yanaşır?***

-Bu məsələ gündəmdə yoxdur, mən bildiyim qədər... Mən həm proseslərdən kənardayam, həm az iştirak etmişəm. Ola bilər bir saat sonra kimsə çıxış edib deyər ki, bu məsələ var, onu da normal qəbul edirəm.

**❑ Elşad PAŞASOY, "Yeni Müsavat"**



# Kollektivos və zəhmətkişi

Zamin HACI
zaminhaci@gmail.com

"Siyasətçilərin vacib bir bacarığı da köhnə adları ilə xalqda ikrah oyadan institutlara yeni adlar tapmaqdır"
*(Taleyran)*

****

**Zimbabve prezidenti Emerson Mnanqaqva ölkəmizə rəsmi səfərə gəlmişdi, bu, Afrika ilə dostluq, qardaşlıq münasibətlərimizi daha da möhkəmləndirmişdir. Yəqin biz Ekvadordan banan idxalını azaldıb Zimbabvedən çoxaltmalıyıq, hərçənd, heç mən dəqiq bilmirəm orda banan istehsalında vəziyyət nə yerdədir. Hökumətin kərgədan saxlayanlara dövlət yardımı proqramı vardırmı? Ruanda qaçqınları üçün əlavə ağac çardaqları düşərgəsi tikilibmi? Zambezi çayı üzərindəki Viktoriya şəlaləsininin yanında "Qədim Qəbilə" restoranında əhaliyə mədəni xidmət göstərilirmi? Azərbaycandan gələn şən qonaqlar üçün zürafə antrikotunun şişi neçəyədir və sairə. Bunları öyrənmək istərdik, ümid edirəm İTV-nin yeni lideri və "Ne-He-He" ("Nə, Harada, Haçan") verilişinin qəhrəmanı Balaş müəllim zəhmətkeşlərimizə vaxtında bilgi çatdıracaqdır.**

Sözgəlişi, müxalifət gözügötürməzlik eləsə də, daim pisləsə də, ölkəmizdə hər halda müəyyən islahatlar, müsbət dəyişikliklər baş verir. Həyat yalnız ağ və qara deyildir. Örnək üçün, elə telekanallarda aparılan islahatları götürək. Nə qədər yeyib doymuş olsa da, AzTV-nin köhnə lideri Alışanovun əvəz edilməsi müsbət hadisə idi. Yaxud, İsmayıl Ömərov kimi adamların yerinə Balaş Qasımovun gəlməsi hesab elə Zimbabvenin ucqar meşə kəndində dördillik rus-tatar məktəbi açılması qədər mütərəqqi haldır. Düzdür, yenə İTV-də verilişləri manıslar üzərində qururlar, ancaq neyləmək olar? Başqası yoxdur. Millət hamısı oxuyur, çalıb-oynayır. Hətta bu yaxında müxalifətin mitinqindən videoya baxdım, orda da maqnitofonda mahnı qoyub əylənirdilər.

Zimbabve prezidentinin Bakıya səfəri isə ona düşərli olmadı, ölkəsində etiraz aksiyaları başladı, qardaşımız Mnanqaqva müəllim tələmtələsik geri qayıtdı. Sözgəlişi, biz, əlbəttə Zimbabvenin bundan qabaqkı lideri Robert Muqabe müəllimi Bakıda görməyi daha çox arzu edirdik, ancaq qismət olmadı, eybi yoxdur. Dünən bir dostumuz isə nəql edirdi ki, Qambiyada rüşvət üstündə qovulan bir nəfəri Bakıda universitetə kafedra müdiri qoyubmuşlar. Bunlar səs-küy qaldırıb, nəticədə adamı işdən çıxardıblar. Mərdimazarı axtarmaqla deyil. Özü səni axtarır. İndiki dövrdə Quql-da.

Ancaq dünyada möhkəm dirəşmiş liderlər də vardır. Avtobus sürücüsü Maduro neçə ildir Venesuelanı fırladır, camaatın etirazlarına baxmayaraq getmir. Deyir Putin mənim dayımdır, əyri ağac yayımdır. Putin isə çalışır orda təzə Suriya düzəltsin. Ya da bəd ayaqda Qafqaz kimi bir şey. Məncə baza da var, misal üçün, Venesuelanın Qayana ilə torpaq problemi olmalıdır. Hətta yanılmıramsa Venesuela Qayana-nın heç müstəqil dövlət saymır, deyir oralar bizimdir. Adlar lap səsləşir: Qarabağ, Qayana. Mən Venesueladan bir maraqlı təcrübə də öyrənmişəm. Sən demə orda dövlət əmək kollektivlərinə, zəhmətkeşlərə silahlı qruplar yaratmağa icazə veribmiş. Daha doğrusu, solçu hökumətə yaxın, hakimiyyətin tərəfdarı olan qruplardan "kollektivos" adlı könüllülər dəstələri yaradılıb. Bunlar guya yerlərdə ictimai asayişi təmin edirlər, əslində isə başqa "kollektivos"ların ərazilərinə silahlı basqınlar yapırlar. Rəsmi hüquq-mühafizə orqanından başqa belə əcaib silahlı orqanlar yaradılması səhv etmirəmsə bir də İranda var, onlar "Bəsic", islam inqilabını qoruma korpusu kimi adlar qoyublar.

Bir də hazırda Rusiya parlamenti təzə qanun qayırır, ona əsasən dövlət qurumunu, hökuməti-zadı tənqid eləmək qadağan olunacaq. Azı 15 sutka həbs də edəcəklər. Doğrusu bilmirəm bizdə belə qanun varmı, ancaq qonum-qonşunun müsbət təcrübələrini öyrənmək borcumuzdur. Oyunbazlıq nəyə gərək? Azadlıq anarxiya deyildir. Harda görünüb sən hökuməti tənqid edəsən? Xüsusilə də, onun yaranmağında, formalaşmasında sənin rolun yoxdursa? Bu, təxminən mənim Zimbabve prezidentini tənqid eləməyimə bənzəyər. Adama deyərlər get aşığını at, adə.

Hələ terminə bax: kollektivos. Sanki mahnı oxuyursan. İspan dilinin belə gözəllikləri var. Biz də oxşarını yaratsaq təklif edirəm adı zəhmətkişi olsun. Zəhmətkeş və kişi sözünün simbiozu.




# Kremlin Ermənistan seçimi: işğalçı ölkə "nifaq alması"na çevrilir

## Moskvadan İrəvana "yumşaq güc" nümayişi, Putinin Paşinyana ikinci "qulaqburması" və Bakının gözləntisi...

**Ermənistanın baş naziri Nikol Paşinyan Moskvaya budəfəki səfərində Rusiya prezidenti Vladimir Putin tərəfindən qəbul edilmədi. Kreml başçısı onunla bir neçə dəqiqəlik görüşüb şəkil çəkdirməyi belə özünə və ona rəva bilmədi. Paşinyan yalnız Rusiya baş naziri Dmitri Medvedevlə görüşlə kifayətlənməli oldu. O da erməni tərəfinin xahişindən sonra.**

Bu, Ermənistanda "məxməri inqilab"dan sonra keçən 9 ayda rəsmi İrəvanın ilk belə fiaskosudur. "Yeni Müsavat" bu xüsusda xatırladır ki, ötən il sonu Moskvada keçirdiyi ənənəvi illik mətbuat konfransında V.Putin Ermənistanla (oxu: onun yeni rəhbərliyi ilə) problemin olmadığını iddia edərək, "ikitərəfli münasibətlərimizdə nə dağılıb ki, onu bərpa edək", söyləmişdi. Ancaq həmin bəyanatdan az sonra Rusiya lideri Paşinyanla Moskvada mehriban atmosferdə görüşsə də, sonuncu İrəvana qayıdan kimi Rusiya Ermənistana satdığı təbii qazın qiymətini 150 dollardan 165 dollara qaldırdı.

O vaxt bunu rəsmi Kremlin İrəvana ilk xəbərdarlığı kimi qiymətləndirmişdik. Bu dəfə Putinin Nikolla görüşü iqnor eləməsi növbəti və daha sərt "qulaqburması" sayıla bilər. Buna "yumşaq güc nümayişi" də demək mümkündür. Belə görünür, Kreml başçısı bu qəbildən xəbərdarlıqların "doza"sını getdikcə artıracaq. Çünki artıq şübhə qalmır ki, Putin Paşinyandan məmnun deyil, ona etibar etmir və İrəvana qarşı hansısa kontur-planı var. Burada Paşinyanın Rusiyaya sadiq simaları, Putinin dostlarını (R.Köçəryan və s.) Ermənistanda təqib və həbs etdirməsi əlbəttə ki, mühüm rol oynayır. Ancaq başqa motivlər də var.

*****

Diqqətçəkicidir ki, Moskvaya budəfəki səfərindən öncə Nikol Paşinyan yenə Rusiyaya siyasi reveranslar eləmişdi. Belə ki, səfərdən öncə Davosda "Avronews" televiziyasına müsahibəsində o demişdi ki, Ermənistan xarici siyasətdə qəfil dönüşlər etməyə hazırlaşmır. Onun sözlərinə görə, Avrasiya İqtisadi Birliyi (AİB) Ermənistan üçün vacibdir və erməni biznesi üçün böyük bazar sayılır. O, Vladimir Putinin layihəsi olan AİB ilə Ermənistanın imzaladığı razılaşmanın şərtlərini yerinə yetirmək niyyətində olduğunu da bildirmişdi.

Paşinyan eyni sözləri az sonra Moskvaya etdiyi son səfəri zamanı rusiyalı jurnalistlərə də təkrarladı. "Ermənistanın xarici siyasətində qəfil dönüşlər bizə xeyirli heç nə verməyəcək" dedi. Maraqlıdır ki, onun özü deputat olduğu zaman Ermənistanın Avrasiya İttifaqından çıxması ilə bağlı dinləmələr keçirdiyini etiraf edib: "Əgər biz bunun yanlış qərar olduğunu hesab ediriksə, bu, o demək deyil ki, səhvlərin düzəldilməsi üçün birbaşa əks addımlar atılmalıdır. Bir şeyi misal çəkəcəyəm. Barak Obama hesab edirdi ki, Buş İraqa ordu yeridəndə yanlış addım atıb. Orduları çıxarandan sonra nə oldu? İŞİD meydana gəldi. Bu gün Ermənistan Avrasiya İttifaqının üzvüdür. Ölkə rəhbərliyinin səyləri Avrasiya İttifaqını onun üzvləri üçün effektiv etməyə yönəlməlidir. Eyni şeylər KTMT-yə də aiddir. Ermənistanın bu təşkilatlara üzvlüyünü effektiv, faydalı və perspektivli etmək üçün hər şey edilməlidir", - deyə o, Putinin Avrasiya layihələrinə münasibətdə özünün 180 dərəcəlik mövqe dəyişikliyinə haqq qazandırmağa çalışıb.

Lakin Paşinyanın Rusiyaya növbəti sədaqət andları işə yaramadı və Putinlə görüş üçün kifayət eləmədi. Halbuki erməni baş nazir öz ölkəsinin birinci şəxsi sayılır. Putin isə bir qayda olaraq, Moskvaya gələn müttəfiq dövlətlərin başçıları ilə, hətta spikerləri ilə qısa müddətə də olsa görüşür.

Yeri gəlmişkən, "Nezavisimaya qazeta" nəşri səfər ərəfəsində yazmışdı ki, Paşinyanın Moskva səfərinin proqramında prezident Vladimir Putinlə danışıqların olmaması təhlükəli siqnaldır. Sitat: "Nəşrin məlumatlı mənbəyinin sözlərinə görə, Rusiya tərəfi Ermənistanın yeni hakimiyyətinə hələ də kifayət qədər etibar etmir. Bəzi bəyanatlar, ələlxüsus da Çin, yaxud İsveçlə hərbi-ticarət münasibətlərinin yaradılması cəhdləri, təbii ki, Moskva tərəfindən nəzərə alınmamış deyil. Rusiyaya məxsus təsərrüfat subyektlərində yoxlamalar da etimad dərəcəsini artıra bilməzdi. Bu və ya digər Rusiya siyasi və biznes dairələri ilə əlaqəli olan keçmiş məmurlar barəsində cinayət işləri barədə isə danışmağa dəyməz. Bunlardan ən vacibi həbsdə qalmaqda olan ikinci prezident Robert Köçəryandır ki, deyilənə görə, onu Putinlə şəxsi dostluq telləri bağlayır".

*****

Moskva-İrəvan münasibətlərində soyuq ruzigarların əsməsi fonunda yetərincə dinamik olan Moskva-Bakı əlaqələrini Rusiyadakı müəyyən çevrələrin silkələmək və pozmaq cəhdləri isə indi daha arqumentli görünür. Hədəf şübhəsiz ki, yaranmış vəziyyətdən Azərbaycanın öz xeyrinə istifadəsinə, o sırada Qarabağ məsələsində hansısa divident qazanmasına imkan verməməkdir. Təsadüfi deyil ki, bu yöndə ən çox ermənilərin kök saldığı Rusiya XİN-i, erməni dairələrinə bağlı XİN mətbuat katibi Mariya Zaxarova canfəşanlıq edir.

Ancaq hər necə olmasa, Ermənistan Rusiyaya bir köynək yaxındır. Söhbət xristian amilindən getmir. Məsələ ondadır ki, Ermənistan bölgədə Moskvanın yeganə legitim hərbi qalasıdır. Azərbaycan və Gürcüstan öz ərazilərindən rus qoşunlarını çoxdan çıxarıb. Bakı hətta Rusiyanın Azərbaycan ərazisindəki axırıncı hərbi obyekti olan Qəbələ RLS-i də qapadıb. Bununla da regionda Ermənistanın əhəmiyyəti Moskva üçün artıb. Odur ki, hazırda təkcə Paşinyan seçim qarşısında deyil. Putinin özü də Ermənistanın yeni rəhbərliyi və bütövlükdə Ermənistanla bağlı qəliz seçim qarşısındadır.

Kremldə yaxşı anlayırlar ki, Rusiya Ermənistandan da çıxası olsa, onda Ermənistanla birgə regiona "əlvida" deməli olacaq. Putinin Paşinyanla görüşdən imtina eləməklə ona psixoloji təzyiqi daha da artırmaq istəyinin arxasındakı əndişə ən əvvəl bununla izah edilə bilərdi. Moskva bunun yaxşı fərqindədir və ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Con Boltonun Davosda olan Paşinyana son telefon zəngi də bu iddiaları təsdiqləyir ki, Ermənistan uğrunda ABŞ-Rusiya rəqabəti artıq başlayıb. Ermənistan "nifaq alması"na çevrilməkdədir. Hələ ki "balans siyasəti" aparmağa çalışan Paşinyan günün birində "ağ bayraq"la o biri tərəfə keçə də bilər...

*****

Mövcud vəziyyətdə rəsmi Bakı təbii ki, region ətrafında bütün gəlişmələri, özəlliklə də Ermənistanın Qərblə, Amerika ilə əlaqələrinin gedişini diqqətlə izləmək və çevik nəticələr çıxarıb adekvat reaksiyalar vermək zorundadır. Hər halda, gərək unudulmasın ki, Nikol Paşinyan ruhən rusun yox, ABŞ-ın adamdır. Onun "məxməri inqilab" nəticəsində hakimiyyətə gəlməsində Amerikanın İrəvandakı səfirliyinin müstəsna xidməti olub. Bunu da Moskvada yaxşı bilirlər...

**❑ "Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 20 (7190) 28 yanvar 2019

# Bakı və İrəvan arasında "5+2" anlaşması... olubmu?

## Rus politoloqlar Qarabağla bağlı sülh sazişinin vaxtını açıqlayırlar, Azərbaycanda isə...

**Tezliklə Bakı və İrəvanın Qarabağ münaqişəsi ilə bağlı anlaşma imzalaya biləcəkləri haqqında Rusiyanın tanınmış politoloqları açıqlamalar veriblər. Ötən həftə rusiyalı politoloq Stanislav Tarasov bildirib ki, erməni tərəfi təzyiq altında bir neçə rayonu güzəştə getməyə məcbur olacaq. Və bu iyunda baş verəcək.**

Digər rusiyalı politoloq Modest Kolerov isə Ermənistanla Azərbaycan arasında anlaşmanın fərqli zamanda baş verəcəyini söyləyib. O hesab edir ki, anlaşma artıq mart ayında imzalanacaq və razılaşma sənədi çoxdandır ki mövcuddur. Beynəlxalq Avrasiya hərəkatının lideri, siyasi elmlər doktoru və publisist, həmçinin "Kremlin ideoloqu" adlandırılan Alensandr Duqin isə media.az-a müsahibəsində hadisələrin bu cür inkişafının mümkün olduğunu bəyan edib: "Məsələ bundadır ki, Rusiya ilə Azərbaycanın mövqelərində müəyyən əlaqə və ardıcıllıq var. Rusiya burada passiv müşahidəçi yox, həll prosesinin aktiv iştirakçısıdır. Moskva ilə Bakı arasında əvvəlcə Dağlıq Qarabağ ətrafındakı beş və sonra daha iki rayonun qaytarılması məsələsi ilə bağlı qarşılıqlı anlaşma var. Bu Ermənistanın əvvəlki rəhbərliyi ilə razılaşdırılmışdı".

Həmsöhbətin sözlərinə görə, dəyişən yalnız Nikol Paşinyanın mövqeyi olub: "O, hakimiyyətə böyük ölçüdə antirus, milli, liberal və qərbmeyilli dalğaların üzərində gəlib. Lakin bir siyasətçi kimi Paşinyan anlayır ki, Qarabağ məsələsində əvvəlki Ermənistan hakimiyyəti ilə razılaşdırmaların inkar edilməsi onun özünə mənfi təsir göstərəcəkdir".

A.Duqin hesab edir ki, Nikol Paşinyanın Qarabağ anlaşmaları ilə bağlı artıq bu yazda daha rasional mövqe tutacağını güman etməyə imkan verən bir sıra amillər mövcuddur: "Moskva və Bakının mövqeləri möhkəmdir və hər hansı bir dəyişikliyi nəzərdə tutmur. Bu zəmində, təkrar edirəm ki, mən ən qısa zamanda beş, və daha sonra iki rayonun Azərbaycana qaytarılması haqqında razılaşmanı istisna etmirəm. Bundan sonra isə yeni mərhələ başlayacaq".



O, "yeni mərhələ"nin nə demək olduğu barədə isə danışmayıb.

Bəs, rus politoloqların bəyanatlarına inanmağa dəyərmi, yoxsa ciddi əsası yoxdur? Keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov "Yeni Müsavat"a açıqlamasında deyilənlərin həqiqətə uyğun olmadığını dedi: "Azərbaycan tərəfi Ermənistanın, xüsusən Paşinyanın heç bir real danışıqlara hazır olmadığını gözəl başa düşür. Əgər biz bunu başa düşürüksə, dəqiq deyə bilərəm ki, Azərbaycan rəhbərliyi də bunu yaxşı bilir. Amma bu görüşlərdə öz mövqeyini təbliğ etmək üçün deyir ki, mən hər bir görüşə hazıram, lakin görürsünüzmü, bunlar boş-boş söhbətlərdir. Necə ki, bundan qabaq Serj Sərkisyan boş-boş söhbətlər aparırdı, indi də Paşinyan bu mövqeyi davam etdirmək niyyətindədir. Ermənistandan başqa digər qüvvələr, Rusiyadakı dairələr də, Minsk Qrupunun üzvləri də vəziyyəti elə göstərmək istəyirlər ki, guya danışıqlarda nəsə baş verib, hansısa müzakirələr var. Stanislav Tarasov və digər rus politoloqların da açıqlamalarına bu prizmadan yanaşıram. Biz başa düşməliyik ki, bu bəyanatlar həqiqətə uyğun deyil. Çünki ortadakı danışıqlarda heç nə yoxdur".

T.Zülfüqarov bildirdi ki, ABŞ münaqişənin həllinin vacib olduğunu Paşinyana başa salmağa çalışır, amma məsələnin həllində təkcə bu mövqe həlledici deyil: "Müxtəlif kanallarla bu mövqe Paşinyana çatdırılıb. Yəni əgər sən istərsənsə Qərbpərəst siyasət yürüdəsən, Qərbə yaxın olasan, onda bu işləri görməlisən. Yəni quru-quru bəyanatlar və Qərblə Rusiyanın qarşıdurması şəraitində hansısa dividentlər götürməyin mümkün deyil. O baxımdan bu, Ermənistan rəhbərliyinə çox ciddi siqnaldır. Çünki onların hakimiyyətə gəlişinin əsas prinsiplərindən biri bundan ibarət olub ki, biz Rusiyadan ayrılıb Qərb sivilizasiyasına yaxın olacağıq. İndi burda onların Qərb sivilizasiyasına yaxın olmasının qiyməti çox ciddi şəkildə verilir. Yanaşma da ondan ibarətdir ki, sən bu qiyməti ödəyəcəksən. Sən işğal olunmuş torpaqları azad etməlisən. Ona görə də bu və ya digər vasitə ilə belə görüntü yaratmaq istəyirlər ki, guya bu gün-sabah nə isə olacaq, sülh sazişi imzalanacaq, 3-5 rayonu qaytarırlar və sair. Ermənistan bir müddət də prosesi bu cür uzatmağa, süni vaxt qazanmağa çalışır. Diqqət etsəniz, görəcəksiniz ki, həmişə bizim ictimaiyyətə qarşı bu oyunları oynayırlar. Amma mən hesab edirəm ki, indi bunların heç bir faydası yoxdur. Çünki ictimaiyyət bunlara inanmır. Artıq rusiyalı analitiklərin də hansısa açıqlamalarına cəmiyyətdə əvvəlki münasibət qalmayıb".

Politoloq Qabil Hüseynli isə hesab edir ki, Qarabağ məsələsi ilə bağlı hansısa hələlik tam açıqlanmayan prosesin getdiyini söyləmək mümkündür: "Böyük ehtimalla adıçəkilən rus politoloqlar da buna və başqa informasiyalara əsaslanıb açıqlamalar verirlər. Belə görünür ki, onlarda o dərəcədə müfəssəl informasiyalar var ki, sülh sazişi barədə hətta konkret vaxt söyləməkdən belə çəkinmirlər. Sülh sazişində nələrin nəzərdə tutulacağı barədə isə ətraflı nə isə danışmırlar. Əvvəlki dövrlərdə də bu cür nikbin tonda açıqlamalar olub. Lakin proses dayanıb və verilən proqnozlar reallaşmayıb. Bu dəfə də belə olub-olmayacağını yaxın zamanlarda biləcəyik".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# ABŞ Qarabağ məsələsində təşəbbüsü ələ almağa girişib

## Siyasi analitikdən Vaşinqtonun planı haqda ilginc açıqlama: "İrəvanla Bakı arasında aralıq sazişi imzalana bilər, bu, daha çox ABŞ planına bənzəyir..."

**ABŞ və Avropanın timsalında münaqişənin dinc həlli üçün təşəbbüslərdə artma meylinin olduğu müşahidə edilir. Bu təşəbbüslərin uğurlu olacağı isə, əlbəttə ki, Rusiyanın da mövqeyindən, Kremlin bu prosesə nə dərəcədə qısqanc yanaşacağından asılı olacaq. Qərb paytaxtlarının birində Əliyev-Paşinyan görüşünün baş tutacağı iddiaları da var. Görüşün isə ABŞ-ın təşəbbüsü ilə keçiriləcəyi iddiaları rus politoloqlar tərəfindən bildirilir.**

İstisna deyil və ABŞ prezidentinin müşaviri Con Boltonun Davosda İlham Əliyev-Nikol Paşinyan görüşündən dərhal sonra Paşinyana telefon açması da göstərir ki, Vaşinqton, nəhayət, bölgədəki yeni və həssas reallıqları nəzərə alaraq və Rusiya ilə kəskinləşən münasibətlər fonunda Güney Qafqaz uğrunda həlledici mübarizəyə qərar verə bilər. Bundan ötrü əlbəttə ki, Ermənistanın Azərbaycan və Türkiyə münasibətlərinin normallaşması, demək, Dağlıq Qarabağ məsələsində mühüm irəliləyişin olması labüddür.

Bəs ABŞ Qarabağ məsələsində təşəbbüsü ələ ala biləcəkmi? Rusiya buna imkan verərmi? Vaşinqton təşəbbüsü ələ alsa, Azərbaycan və Ermənistan liderlərinin görüşünə nail olunsa hansısa sülh razılaşması mümkünmü?

Politoloq Nəzakət Məmmədova "Yeni Müsavat"a şərhində bildirdi ki, ABŞ-ın Qarabağ məsələsində aşkar fəallığı artıq uzun müddətdir müşahidə olunur. Paşinyanın hakimiyyətdə gəlməsindən sonrakı dövrdə baş verən bir sıra hadisələr, Amerika rəsmiləri tərəfindən verilmiş bəyanatlar, eləcə də Paşinyanın son dövrdəki davranışları bu ehtimalı irəli sürməyə əsas verir. Habelə, onun rəqiblərinin, eləcə də Rusiyanın narahatlıqları mənzərəni daha da aydın təsəvvür etməyə imkan verir: "İlk olaraq ondan başlayaq ki, elə ABŞ-dakı bəzi güc dairələrinin erməni diasporu ilə birləşib Paşinyanı hakimiyyətə gətirməsinin, Sərkisyan rejiminin xalqın iradəsi ilə devrilməsinin əsas səbəblərindən biri regiondan Rusiyanın sıxışdırılıb çıxarılması, Qarabağ məsələsinin ABŞ-ın planı əsasında həlli ola bilər. Rusiyanın Cənubi Qafqazda hərbi-siyasi iş-



tirakının məhək daşı mövcud münaqişələr, o cümlədən Qarabağ məsələsidir və burada söz sahibliyini Moskvanın əlindən almaqla ABŞ Rusiyanın təsir imkanlarını xeyli zəiflədə bilər. Paşinyanın əsas məsləhətçilərindən birinin Levon Ter-Petrosyan olması onun Qarabağ məsələsində yeni mövqe ortaya qoyacağına ümidləri artırır. Paşinyan görünür ona verilmiş təlimat əsasında Rusiyanı mümkün qədər danışıqlardan çox təcrid etmək, Azərbaycanla birbaşa təmasa can atmaq istəyi ilə İlham Əliyevlə görüşməyə can atırdı. İlk dəfə ayaqüstü bu Düşənbədə baş verdi, sonradan isə Sankt Peterburqda və Davosda davam etdi. Paşinyanın Azərbaycanla birbaşa əlaqə üsul və vasitələri əldə etmək təlimatını ABŞ-dan alması inandırıcı görünür. Sonradan Qarabağ kartı üzərində hakimiyyətə gəlmiş cinayətkar siyasətçilərin, generalların təmizlənməsi, onlar haqda yaradılmış toxunulmazlıq stereotipinin cəmiyyətin şüurundan silinib atılması da təkcə ABŞ siyasi texnoloqlarının uğurlu piarı deyil, bu ölkənin müəyyən dairələrində qəbul edilmiş siyasi qərarların təzahürü idi. Rusiyaya bağlı olan şəxsləri həbs və ya proseslərdən təcrid etmək, Qarabağ məsələsinə müdaxilənin qarşısını almaq, münaqişəni ABŞ-ın planına uyğun olaraq Azərbaycan və Ermənistan rəhbərlikləri arasında birbaşa ünsiyyət vasitələri, qarşılıqlı etimad mühitinin yaradılması, xalqların böyük sülhə hazırlanması əsasında həll etmək".

Politoloq qeyd etdi ki, artıq ABŞ Minsk Qrupunda faktiki həmsədr deyil, sədr kimi davranır: "Onun münaqişənin həllinə yanaşma prinsipləri, istinad etdiyi resurslar, qüvvə və vasitələr Rusiyadan fərqlənir. Rusiya Yaxın Şərqdə, Afrikada, Latın Amerikasında Amerikanın planlarına mane olub, əl-ayağına dolaşmanın bədəlini Cənubi Qafqazda - Qarabağda ödəyə bilər. Əliyev-Paşinyan qeyri-rəsmi görüşləri daha səmərəli ola bilər, nəinki xarici işlər nazirlərinin Minsk Qrupunun təşkilatçılığı ilə uzun sürən, hələ ki, səmərəli nəticəsi görünməyən uzunmüddətli, sonsuz danışıqlar".

N.Məmmədova vurğuladı ki, artıq ABŞ-ın Paşinyan hökumətini sülhə təhrik etmək planları barədə Ermənistanda təşviş dolu fikirlər səsləndirilib və onun hazırlıqsız halda akulalarla dolu hovuza atılaraq, təzyiqlərə davam gətirməyib torpaqları əldən verə biləcəyi deyilir: "Görünən odur ki, Ermənistanda Paşinyanın danışıqlara hazır olmadığı halda prezident Əliyevlə görüşlərinin Qarabağı qaytarmaqla nəticələnə biləcəyi böyük təşviş yaradıb. Lakin Paşinyan onu hakimiyyətə gətirən qüvvələri eşitmək öhdəliyi götürməmiş deyil. Həmin qüvvələr isə Boltonun səfəri zamanı ABŞ-ın mövqeyini çatdırmışdı. Seçkilərdən sonra Paşinyandan təşəbbüskarlığı artırmaq gözlənilir. Ehtimal oluna bilər ki, İrəvanla Bakı arasında Xankəndindəki separatçı rejimin isterikasına baxmayaraq aralıq sazişi imzalana bilər. Bu, daha çox ABŞ planına bənzəyir. ABŞ-ın planı bu ola bilər. Rusiyanın 5, yaxud 7 rayonu azad etmək, sonradan sülhməramlıları yerləşdirmək planı qarşılığında ABŞ adekvat həll planı təklif etməlidir. Belə olarsa, Qarabağ da daxil olmaqla ABŞ-ın mövqeyi güclənəcək. Amerikanın İranı şimaldan tam nəzarətə almaq planları fonunda Rusiyanın Qarabağda sülhməramlılar yerləşdirməsi Vaşinqtonun nəinki Cənubi Qafqaz, Orta Şərq planlarına böyük maneədir".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 20 (7190) 28 yanvar 2019

# İcra başçısı göyçaylıların gününü "göy əsgi"yə büküb - reportaj

## "Nar paytaxtı"nda yollar bərbad, şəhər zülmət və zibillik, su boruları satılıb, yaşıllıqlar məhv olunub - əməkdaşımızın qeydləri...

**...Azərbaycanın "nar paytaxtı" - Göyçaydayıq. Bizi həftəsonu bura gətirən səbəb bölgədən saysız-hesabsız şikayətlər, narazılıqlar olmasıdır.**


Göyçayda problemlər burdan başlayır

İstər onlayn mediada, istərsə sosial şəbəkələrdə göyçayıların davamlı olaraq rayondakı sosial problemlərdən, icra hakimiyyətinin başçısı Mehdi Səlimzadənin özbaşınalıqlarından yazdıqları bizi deyilənləri yerindəcə araşdırmağa məcbur elədi.

Dövlət başçısı da nöqsanların göstərilməsində ictimai nəzarətin vacibliyini vurğulamışdı, məmurların özbaşınalıqlarından bəzən mətbuat vasitəsi ilə xəbər tutduğunu bildirmişdi.

Elə son dövrlərdə yerli icra strukturlarında edilən dəyişikliklərin ana xəttini də məhz əyalət "padşah"larının necə işləməsi təşkil edir. Hansı bölgədən daha çox şikayət gəlirsə, çox çəkmir ki, ora əl gəzdirilir və yeni icra başçısı ilə əvəzlənir.

Prezident Nazirlər Kabinetinin son iclasında da qeyd etmişdi ki, kadr və struktur islahatları davam edəcək: "Ancaq mən həmişə, necə deyərlər, narazı oluram. Çünki mən istəyirəm ki, daha yaxşı olsun. İstəyirəm ki, bu pozuntular olmasın. Harada ki mümkündür, biz maksimum dərəcədə öz imkanlarımızdan istifadə edək ki, işlər daha da yaxşı getsin.

Ona görə kadr islahatı da bu məqsədi daşıyır. İndi struktur islahatı gözlənilir. Çünki indi idarəetmədə struktur köhnəlib. Yeni idarəetmə strukturu olmalıdır - daha çevik, daha yığcam, daha məqsədyönlü".

Bu baxımdan Göyçayda olarkən şahidi olduğumuz problemlər, ayrı-ayrı sakinlərin söylədiyi məsələlər dəyişikliyi qaçılmaz edir. Çünki göyçaylılar icra başçısı Mehdi Səlimzadənin idarəçiliyindən cana doyublar...

**Bərgüşad yolu - Suriyanı xatırladır**

Sakinlərin sözlərinə görə, M.Səlimzadənin gəlişi ilə Göyçayda zərrə qədər irəliləyiş olmayıb: yollar bərbad, şəhər axşamlar zülmət, abadlıq-quruculuq yox, hər yer zibil dağları, işıq dirəkləri əyilib, yaşıllıqlar məhv olunub və s.

Göyçaylılardan əvvəlcə öyrənirik ki, rayondan Ucara, Kürdəmirə aparan Bərgüşad yolunun pulu mənimsənilib.

Bu yolun asfaltlanmasına 150 mindən çox vəsait ayrılıb. Amma iki ildir ki, yol düzəldilmir. Rayon sakini Kazım yolun cəmi 1-2 kilometrinin düzəldildiyini bizə göstərir: "Baxın, yolu ala-bula düzəldib, qalanı kələ-kötürdür. Bilirsiz niyə? Çünki başçı həmin pulu həzm-rabedən keçirdib.

Bu cür əhəmiyyətli yol iki ildir düzəldilməlidir, ortada heç nə yoxdur. Bu yol Ucara, Kürdəmirə gedir. Kürdəmir yolu ilə Bakıya gedənlər bu yoldan istifadə edir Həmçinin, rayonun 10-dan çox kəndi bu yolun üstündədir, nəqliyyatın intensiv hərəkət etdiyi istiqamətdir. Mehdi müəllimi isə burada zülüm çəkən insanlar maraqlandırmır".

**Çinar ağaclarına qətliam, kəndlərdə boru alveri...**

Kazım deyir ki, Potu kənd ərazisində də ağaclar kəsilib. Kəndə gedərək həmin yaşıllıq massivini sakinlərdən soruşuruq. Deyirlər ki, bu ərazidə köhnə su boruları olub.

Onların tərkibi misdir, yəni qiymətlidir. Həmin su borularını çıxarıb satırlar. Bu işi görəndə yüzillik çinar ağaclarını kəsiblər, məhv ediblər: "Sizcə bunu kim edəcək? Əlbəttə ki, icranın işidir. Bir akt tərtib ediblər, protokollaşdırıblar, vəssalam. Köhnə boruları oradan çıxarmaq, satmaq kimin yadına düşər? Axı orda heç bir iş görülməyəcək?! İndi yaxşı boruları satırsız, heç olmasa işi səliqəli görün də. Elə vəhşiliklə ediblər ki, çinar ağaclarını da məhv ediblər. Bu adamlar elə bil təbiət düşmənləridir".






Şəhər zibillik məngənəsində





Eyni işi Mirzəhüseynli kəndində də həyata keçiriblər. Əkin torpaqlarının suvarılması üçün sovet vaxtı Şirvan kanalından uzunluğu 5000 metr olan nikkel metalından yeraltı boru xətti çəkilib. Bələdiyyə sədri saxta akt tərtib edərək texnikaları qazıb çıxartdırıb, satdırıb.

Göyçay sakinləri Bığır kəndində də "boru əməliyyatı" olduğunu söyləyirlər. 100 kilometr su borularını satıb 700 min manat qazanc əldə olunub.

**Rayon zibillənib, İH-nin arxasındakı zibillik isə "göz deşir"**

Rayonda diqqətimizi çəkən antisanitariyanın olması, hər yerin zibillik olmasıdır. Göyçay küçələrində zibil qutuları tapa bilməzsiniz.

Hər addımbaşı qida tullantıları qalaqlanıb. Məscidin yaxınlığında, Əli Kərim küçəsində, 17-ci əsrə aid yeraltı hamam olan tarixi abidənin qarşısı zibilliklərlə əhatələnib. Hamamın qarşısındakı ağaca vurulan xəbərdarlıqda zibil atmamaq tələb olunur.

Amma zibil dizə qədərdir. Çünki bir zibil qutusu belə yoxdur. Ən əsası bu zibillik Rayon İcra Hakimiyyətinin binasının arxasında da özünə "yer tapıb".

Göyçay RİH-nin arxasında, orta məktəbin yanında zibillik göz deşir, amma nə rəhbərliyin, nə Kommunal Təsərrüfat İdarəsinin vecinədir.

Sakinlər şikayətlənirlər ki, Göyçay zibilliyə qərq olub, əhalinin sağlamlığı təhlükədədir. Azyaşlı uşaqlar zibillikdə oynayır, küçə itləri çoxalıb.

Göyçay Kommunal Təsərrüfat İdarəsində 40-a yaxın işçi var. Hər ay evlərdən zibil pulu adı ilə 1 manat yığılır. Bu da ayda 15.000 manatdan çox edir. Çünki Göyçayda 15-20 min arası ev olduğu deyilir.

**Qopan fasad örtükləri, solan palmalar və "Perron"**

Göyçayın baxımsızlığı fasad örtüklərinin sökülüb qopmasında özünü xüsusi göstərir. Keyfiyyətsiz görülən "abadlığın" nəticəsidir ki, örtüklər qopub, rayona gələn qonaqların ilk diqqətini də çəkən bu rüsvayçı mənzərə olur.

Sakinlər bildirirlər ki, M.Səlimzadə bu yoldan hər gün xidməti maşınında keçir və fasadların nə gündə olduğunu yaxşı görür, amma əlini ağdan qaraya vurmaq, o qopuq yerləri bərpa etdirmək ağlından keçmir.

Əgər İH rəhbərinin fikrindən abadlıq işləri keçsəydi, axşam 5-dən sonra zülmətə bürünən Göyçayın işıqlandırılması üçün göstəriş verərdi, avtovağzalın yanında əkilən və rayonun iqliminə heç bir dəxli olmayan solmuş palmaların yerində ağaclar əkdirərdi. Göyçay Ərəbistan deyil ki, palma əkəsən...

Avtovağzal demişkən, yenicə istifadəyə verilən avtovağzalın adı rayonda lağ-lağı obyektinə çevrilib. M.Səlimzadə "kreativ" ideya fikirləşərək Göyçayla əlaqəsi olmayan bir sözü - "Perron" adını avtovağzala verdirib.

"Perron" sərnişin platforması deməkdir. Sakinlər isə təklif edirlər ki, əvvəlcə Göyçay abadlaşdırılsın, rayon müasirləşdirilsin, fermerlərin, kəndçilərin, sahibkarların işinə şərait yaradılsın, sonra vağzala əcnəbi ad vermək olar.

Sakinlər deyir ki, rayonda biznes mühiti boğulub, investisiya yatırmaq istəyən iş adamlarına süni əngəllər yaradılır, aqrar sektor inkişaf eləmir. Göyçaylıların əsas məşğuliyyəti nardır.

Sakinlər isə deyirlər ki, sonuncu Nar bayramı festivalında onların başına gətirilənlər bir dərs olub. Nar bayramına sponsorluq edilməsinə baxmayaraq, icra başçısının göstərişi ilə hər piştaxtadan günə 50-100 manat alıblar.

Üç gün davam edən festivala görə başçı hər piştaxtadan 200-300 manat qazanıb. Təqribən 200-250 piştaxta olduğunu nəzərə alsaq, böyük qazanc götürülüb. Halbuki, festivalın xərcləri sponsorlar tərəfindən ödənilmişdi.

Bir sözlə, Göyçay prezidentin elan etdiyi kadr islahatına ehtiyacı olan əyalətlərdən birinə çevrilib və yuxarıda göstərdiyimiz sosial problemlər girdabında boğulan rayon camaatının gözü siyasi rəhbərliyə dikilib...

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**
**Göyçay-Bakı**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Bakı və Ankaradan İrəvana müştərək ismarış - "Ya sülhü seç, ya da..."

## Ermənistan bu il heç vaxt olmadığı qədər Azərbaycan-Türkiyə müttəfiqliyini öz qarşısında görəcək; **azərbaycanlı politoloq:** "O vaxt hakimiyyətdə Dəmirəl yox, Ərdoğan olsaydı..."

**Keçən həftə Dağlıq Qarabağla bağlı ən yadda qalan hadisə, sözsüz ki, Davosda Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistan prezidenti arasında baş tutan görüş oldu. Saat yarım çəkən görüşlə bağlı müxtəlif mülahizə və ehtimallar səslənsə də, bir şey dəqiqdir ki, bu görüş hər şeydən öncə Ermənistanın Qarabağ məsələsində iki əsas münaqişə tərəfindən biri və işğalçı dövlət olmasının növbəti təsbiti kimi yadda qaldı. Eyni zamanda, rəsmi İrəvanın Dağlıq Qarabağdakı separatçı rejimi birbaşa danışıqlara qoşmaq istəyi birdəfəlik basdırılmış oldu.**




Əlbəttə ki, 1-2 qeyri formal görüşlə sülh danışıqlarında ciddi donuş gözləmək yanlış olardı. Bəs Davos görüşünün hansısa başqa nəticələri varmı? Analitiklərin bu xüsusda şərh və proqnozlarını təqdim edirik.

*****

"Biz öz mövqeyimiz göstərdik və lazımi taktiki məqsədlərə nail olduq. İstisna etmirəm ki, Davosda qarşı tərəfə deyilib ki, bu, ya belə olacaq, ya da müharibə qaçılmazdır. Mən hesab edirəm ki, bu siqnal ciddi şəkildə onlara çatdırılıb". Bu sözləri Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarov Davos görüşünün mümkün nəticələrini qəzetimizə şərh edərkən söyləyib.

"Azərbaycanın seçimi çox sadədir. Biz siyasi imkanları müzakirə edərkən başa düşürük ki, Ermənistandan bu cür addımları gözləmək düzgün deyil. Əsas məsələ budur ki, işğalçıya nə vaxt zərbə endirək və torpaqlarımızı azad edək? Bu mənada seçim çox sadədir və bunu bizim düşmənlərimiz də yaxşı başa düşür", - deyə eks-diplomat Azərbaycanın müharibə variantını həmişə "ehtiyatda" saxladığına işarə vurub.

"Bu, artıq Dağlıq Qarabağ nizamlanması ilə bağlı ciddi görüşdür. Düşünürəm ki, İlham Əliyev və Nikol Paşinyan bir çox prinsipial məsələlərlə bağlı artıq kompromis əldə edə biliblər". "Yeni Müsavat"ın məlumatına görə, bunu isə rusiyalı tanınmış politoloq Sergey Markov "Bakı-Moskva" video-körpüsü zamanı deyib.

Onun zənnincə, yaxın zamanlarda yəqin ki, iki ölkənin rəhbərləri daha detallı danışıqlar aparacaqlar və bu, ictimaiyyətə bəlli olacaq. "Rəsmən bəyan ediləcək ki, hansısa kompromis tapılıb və tərəflər anlaşma imzalamağa hazırdır. Fikrimcə, bu sənədin əsasında Kazan formulu dayanacaq", - deyə rusiyalı analitik qeyd edib.

Markov hesab edir ki, son danışıqlar yeni yaranmış situasiya nəticəsində mümkün olub. "Ermənistanda artıq daxili siyasi tələtümlər dövrü başa çatıb. Ermənistan rəhbərliyini ultra-patriotik eyforiyanın əsiri edən hakimiyyət uğrunda mübarizə, seçkilər artıq arxada qalıb. Bundan sonra Dağlıq Qarabağla bağlı nizamlama prosesi mümkün oldu. Həmçinin Azərbaycanın uzun illər ərzində tutduğu prinsipial, ardıcıl mövqe də uğurlu danışıqlara çıxışı təmin elədi. Sülh prosesi üçün müvafiq şərtlər yarandı", - deyə o əlavə edib..

*****

İstənilən halda, Bakı hərb variantını daim göz önünə alır. Şübhə yox ki, müharibə olsa da, olmasa da, Azərbaycanın üstün hərbi qüdrəti sülh danışıqlarında da Azərbaycan üçün mühüm avantaj, düşmənə ciddi psixoloji təsir və təzyiq vasitəsidir. Odur ki, Bakı danışıqlar prosesinin gedişindən asılı olmayaraq, bu il də Azərbaycanın öz hərbi gücünün artırılmasına, o sırada yerli hərbi-sənaye kompleksinin inkişafına böyük diqqət ayıracaq.

Şəksiz ki, bu yöndə qardaş Türkiyə ilə bütün sahələr üzrə əlaqələrin bu il də dərinləşdirilməsi prioritet hədəflərdən biri olacaq. Türkiyə rəsmiləri artıq bəyan ediblər ki, rəsmi Ankara 2019-cu ildə də Ermənistana qarşı prinsipial mövqeyinə sadiq qalacaq.

"Türkiyə Dağlıq Qarabağın işğalının qarşısını bütün səylərə baxmayaraq ala bilmədi". Ötən həftəsonu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan söylədiyi bu sözlər də Azərbaycan üçün az önəm daşımır və qardaş ölkənin həmişə Azərbaycanın yanında olacağının anonsudur. Eyni zamanda, düşmən ölkəyə sərt xəbərdarlıq ismarışıdır.

Bu da maraqlıdır ki, Ərdoğan Ankaranın Qarabağın işğalına mane ola bilməməsini o zaman Türkiyənin həmin dövrdə yetərincə güclü dövlət olmaması ilə əlaqələndirib. "Türkiyə öz sərhədlərində baş verən hadisələrdən dərs alıb və başa düşüb ki, çox güclü olmaq lazımdır" - Ərdoğan əlavə edib.

Politoloq Elxan Şahinoğlu hesab edir ki, Ərdoğanın "Türkiyə Dağlıq Qarabağın işğalının qarşısını bütün səylərə baxmayaraq ala bilmədi" açıqlaması acı həqiqətdir. O, Ərdoğanı keçmiş həmkarı Süleyman Dəmirəllə müqayisə edərək deyib: "Ərdoğannın sonrakı iki cümləsi də maraqlıdır. O bildirib ki, Türkiyə həmin dövrdə güclü dövlət deyildi, Türkiyə öz sərhədlərində baş verən hadisələrdən dərs alıb və başa düşüb ki, çox güclü olmaq lazımdır. Əminəm ki, Azərbaycan torpaqları işğal olunarkən Türkiyə prezidenti Süleyman Dəmirəl yox, Rəcəb Tayyib Ərdoğan olsaydı, Ankara işğala seyrçi qalmayacaqdı. Bəlkə də Bakının istəyi ilə Türkiyə ordusu Azərbaycana əməli dəstək verəcəkdi. Ərdoğan Dəmirəl kimi acından ölən Ermənistana buğda da göndərməzdi".

*****

Məsələ də ondadır ki, artıq Ermənistanın yeni rəhbərliyi işğalçı ölkəyə qarşı təkcə Azərbaycanın deyil, Azərbaycan-Türkiyə cütlüyü və ittifaqının durduğuna, Qarabağ probleminin Türkiyə üçün də eyni dərəcədə önəmli olduğuna sələfləri kimi, əminlik hasil edib. Bu qətiyyəti həmçinin prezident Ərdoğanın "Cənubi Qafqazda baş verənlər türk xalqına qarşı yönəlib" sözlərindən görmək olar.

Ərdoğan deyib ki, bəzi ölkələr Türkiyəyə böyük ziyan vurmaq üçün erməni terrorçularından istifadə edib. Onu da qeyd edib ki, həmin dövlətlər indi də Türkiyə və türk xalqına ziyan vurmağa çalışır. "Bu gün Türkiyə sərhədlərində, eləcə də Cənubi Qafqazda baş verən hadisələr ümumilikdə türk xalqına qarşı yönəlib", - deyə o, ilk növbədə işğalçı Ermənistanı nəzərdə tutaraq əlavə edib.

Bu bəyanat bir daha rəsmi Ankaranın təcavüzkar Ermənistana münasibətdə hər hansı birtərəfli güzəştə getməyəcəyi barədə qətiyyətli mövqeyinin nümayişidir. İrəvan Türkiyə ilə sərhədlərin açılmasını, münasibətlərin bütün sahələr üzrə normallaşmasını səmimi şəkildə istəyirsə, o zaman nəinki Dağlıq Qarabağ məsələsində konstruktiv mövqe tutmalıdır, eləcə də saxta "erməni soyqırımı" iddiasından əl çəkməlidir. Türkiyənin bu iki ədalətli şərtini az öncə prezident Ərdoğanın mətbuat katibi İbrahim Kalın aydın şəkildə bəyan eləmişdi. Bakının əsas şərti də çoxdan bəllidir: torpaqlar qeyd-şərtsiz azad edilməlidir. Odur ki, seçim Paşinyan hökumətinindir.



## Erməni prokurordan etiraf: "Azərbaycan 50 milyard dollarlıq təzminat davası açır..."

**Erməni mediası xəbər verir ki, Ermənistanın keçmiş baş prokuroru, ölkənin Avropa İnsan Haqları Məhkəməsində (AİHM) keçmiş nümayəndəsi, keçmiş deputat Gevorg Kostanyan Tert.am nəşrinə müsahibəsində Qarabağ münaqişəsi kontekstində Azərbaycanın AİHM-də Ermənistana qarşı 50 milyard ABŞ dolları həcmində iddia ərizəsi hazırladığını bildirib (moderator.az).**

"Təəssüf ki, məndə Azərbaycanın Qarabağ münaqişəsi kontekstində Ermənistana qarşı dövlətlərarası bir iddia hazırlaması haqqında məlumat var. Bu iddia siyasi, hüquqi, sosial və mədəni komponentlərdən ibarətdir. Ən narahatedici hal isə, onun 50 milyard dollarlıq ciddi iqtisadi komponenti var" - Kostanyan deyib.

Onun sözlərinə görə, müxtəlif Avropa ölkələrində Azərbaycanın səfirləri aparıcı hüquqşünaslarla müqavilə imzalayıblar, yeni vəkillərdən ibarət qrup formalaşdırılır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 20 (7190) 28 yanvar 2019



# Belarus kişiliyi və Gürcüstan namərdliyi

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Rəsmi Tiflis 2008-ci ilin qışında etdiyimiz böyük yaxşılığın əvəzini 2019-cu ilin bu qış günlərin "bizə qaytardı". Həmin ilin yayında Rusiya ilə Gürcüstan arasındakı 5 günlük müharibədən sonra qəzəblənmiş Kremlin təhdidlərinə baxmayaraq, Azərbaycan öz qonşularını donmaqdan xilas etmişdi...**

Neçə gündür ki, Gürcüstanın Axalkalaki bölgəsində Xocalı canisi Mixail Avaqyana büst qoyulması səbrimizi daşırıb. İndi Zurab Qventsadze deyir ki, Avaqyana abidə ucaldılması Gürcüstandakı müəyyən erməniyönümlü qüvvələrin təşəbbüsüdür. Amma belə nağılları çox eşitmişik.

Bəli, gürcülər özləri də etiraf edirlər ki, bu erməni cəlladı həm də Abxaziyada gürcülərə qarşı döyüşüb, deməli, faktiki olaraq bu "erməni qəhrəmanı" Gürcüstanın da düşmənidir. Amma bunun bizə dəxli yoxdur. Söhbət Azərbaycan ərazilərinə soxulan, burada körpələri qətlə yetirən canidən gedir! Burada Gürcüstanın dar günündə hər zaman onun yanında olan bir dövlətə qarşı cinayətlər törətmiş cinayətkarın "qəhrəman" kimi sırınması faktı var.

Uzaq Belarus dövləti Dağlıq Qarabağa qanunsuz səfər edən bloger Lapşini Azərbaycana qolubağlı təhvil verdi, nə Rusiyanın, nə də İsrailin etirazlarına baxdı. Ermənistan da gecə-gündüz yaxasını yırtırdı, xeyri olmadı. Belarus Azərbaycana münasibətdə kişiyana davrandı, prezident səviyyəsində bəyan olundu ki, dar günümüzdə Azərbaycan hökuməti bizə 300 milyon kredit verib. Kredit e, a kişi!

Azərbaycan daha Gürcüstan üçün nələr etməyib?! Hələ güzəştli krediti bir yana qoyaq. Müstəqillik dövründə Azərbaycanın bir əli Gürcüstanın ağzında olub. Yeri gələndə öz vətəndaşlarına qazı aşağı təzyiqlə, ya fasilələrlə verib, amma deyib Gürcüstan anbarlarında ehtiyat əskik olmasın. Hətta bun görə illərdir Azərbaycan hökuməti tənə-tənqidlərə də məruz qalır. Ay Gürcüstandakı kilsələrə qaz verilir, daha nələr, deyə... Gürcüstan Azərbaycan pulları ilə cənnətə dönür. Bütün bunların əvəzində Xocalı canisinə abidə qoymaq...

Heç kim bu məsələdən Gürcüstan hökumətinin xəbərsiz olduğu iddiasını beyinlərə yeritməyə çalışmasın. Ölkə ərazisində baş verənlərə, atılan hər bir addıma görə birinci hökumət məsuliyyət daşıyır. Hər halda söhbət Abxaziya, ya Şimali Osetiyada qoyulan abidədən getmir. Başa düşürük. Axalkalaki ermənilərin oylağıdır, amma hələ ki, orada Gürcüstan qanunları hökm sürür. Bu gedişlə davam etsə, Tiflis ermənilərin qarşısından geri çəkilsə, bir gün bu ərazilərə də uzaqdan baxa bilər, yenə də öz problemidir.

Biz indiyədək Gürcüstandan hansısa erməni cəlladının tutulub Bakıya təhvil verilməsini nə gördük, nə də eşitdik - baxmayaraq ki, hər zaman deyirlər biz sizi yaxşı anlayırıq, çünki özümüz də 20 faiz torpaq itirmişik. Bunun əvəzində... Tiflis 5 ildir Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağının, "Borçalı" Cəmiyyətinin rəhbəri Zəlimxan Məmmədli, müavini Salman Murğuzovun ölkəyə girişini yasaqlayıb.

2018-ci ildə Gürcüstan iqtisadiyyatına 1 milyard 888,8 mln. dollar xarici investisiya yatırılıb, bunun 465 milyonu (24,6 faizi) Azərbaycanın payına düşüb. Azərbaycan Gürcüstan iqtisadiyyatına investisiya qoyan xarici ölkələr sırasında birinci yerdədir! Hətta Türkiyə siyahıda üçüncüdür. Tiflisin "sağ ol"udurmu?

Başqa misal: 2018-ci ildə Azərbaycandan Gürcüstana 1 424 610 nəfər gedib. Bununla azərbaycanlılar 2017-ci ildəki kimi, ötən il də Gürcüstana səfər edən turistlərə liderlik edib! O boyda Rusiya bizdən sonradır. Hər gedən turist Gürcüstana nə qədər xərcləyib? Turizmdən əldə etdiyi qazancın böyük hissəsi bizim payımıza düşür. Gürcü hökuməti utanırmı?!

Gürcüstanda bu illər ərzində çox hökumətlər dəyişib, amma hər gələn Azərbaycana qarşı məkrli davranıb. Gah Qarsa dəmir yolu çəkiləndə Axalkalakidə erməniləri qızışdırdılar, gah dedilər qazı Rusiyadan alacağıq, gah Ermənistana dəmiryolu xəttinin açılacağını bəyan etdilər - hansı dəmiryolu ki, işğal olunmuş Gürcüstan ərazilərindən keçir. Kim bilir, bəlkə də həmin xəttin bərpası üçün tələb olunan 250 milyon Ermənistanda olsa, bunu da reallaşdırardılar.

Gürcüstan bizim qapımızdır, bəli. Amma bu kommunikasiya, bu qapıya görə milyardlar qazanır. Odur ki, sonuncu fakt baş verməməliydi. Normal ölkə soyqırım törədənə abidə qoymaz, abidə soyqırıma ucaldılır. Kəsəsi, qonşumuzu bir daha tanıdıq. Heç olmasa, bundan sonra bizə millət və dövlət olaraq - həm də Gürcüstandakı soydaşlarımız üçün - dərs olsun! O qışdan bir də olacaq...



# Venesuela aksiyalarının bir həftəsi - Türkiyə-ABŞ qarşıdurması riski varmı?

## Əhəd Məmmədli: "Maduronun iqtidarda qalması türk-islam dünyasının maraqlarına cavab verir"

**Venesuelada başlayan etiraz aksiyalarının bir həftəsi tamam olur. Getdikcə aksiyalar hazırkı prezident Nikolas Maduro üçün ən kritik həddə çatır. Özünü prezident vəzifəsinin icraçısı kimi elan edən ölkə parlamentinin sabiq sədri Xuan Quaydonu tanıyan dünya ölkələrinin sayı isə artmaqdadır. Artıq aksiyalar zamanı saxlanılanların sayı 500-ü ötüb.**

Bu proseslərdə əsas diqqətlərin yönəldiyi ölkələr Rusiya və Türkiyə oldu. Hər iki ölkə açıq şəkildə Maduroya dəstəklərini nümayiş etdirdilər. Bəzi ekspertlər qardaş ölkənin seçiminin Amerika başda olmaqla Qərb dünyası ilə yeni gərginliyə yol açacağını düşünürlər. Burada Azərbaycanın mövqeyinin necə olmalı olduğu barədə səslənən fikirlər də birmənalı deyil. Azərbaycanın Türkiyənin seçiminə dəstək verməli olub-olmadığı yönündə fərqli düşüncələr var.

Politoloq Əhəd Məmmədli "Yeni Müsavat"a öncəliklə Venesueladakı aksiyaların hansı nəticələr verə biləcəyi yönündə danışdı: "Solçu liderlər həmişə döyüşkən olublar. Mən solçu deyiləm və solçuları heç vaxt sevməmişəm. Amma gəlin, bir az obyektiv danışaq. Abdel-Naser Misirin prezidenti olanda Suveş kanalını milliləşdirdi. Buna etiraz olaraq İngiltərə, Fransa, İsrail Misirə müharibə elan etdi. Tarixi şəxs kimi heç sevmədiyim Abdel-Naser ciddi təhlükəyə rəğmən, hakimiyyətində də qala bildi, dövlətini də qorudu. Fidel Kastro hakimiyyətə gələndən sonra ABŞ-ın dəstəyi ilə Kuba əks-inqilabçıları silahlı hücuma keçdilər. Fidel bu hücumun qarşısını aldı. Beləliklə, ABŞ Latın Amerikasında ilk dəfə məğlubiyyətə uğradı. Çilinin solçu prezidenti Salvador Alyende prezident sarayında öldürüldü, bəzi mənbələrə görə özünə sui-qəsd etdi, lakin general Avqusto Pinoçetə təslim olmadı, ələ keçmədi. Venesuelanın keçmiş prezidenti Uqo Çavesə qarşı hərbi xunta oldu. Hətta bir müddət xuntaçılar iqtidarı ələ keçirdilər də. Buna rəğmən, Çaves qısa müddətdə hakimiyyəti qaytarmağa müvəffəq oldu. ABŞ gördü ki, Kastro kimi Çavesle də güc dili ilə bacarmır, ikincini zəhərləyib öldürtdü. Çavesin birdən-birə müəmmalı şəkildə xəstələnməsi, saçlarının tökülməsini adi xəstəlik saymıram. İndi də Uqo Çavesin sələfi Nikolas Maduro devrilmək təhlükəsindədir. Venesuelada yeni prezident yaranır. Keçmiş parlament spikeri istefaya göndəriləndən sonra küçədə tərəfdarları qarşısında özünü prezident elan etdi. Dərhal da ABŞ və müttəfiqləri müxalifət lideri Quaidonun prezidentliyini tanıyıb. Görünür bu ABŞ-ın inqilab, xuntanın hakimiyyətə gəlmək yolunda istifadə etdiyi yeni metoddur. Eyni metodu Vaşinqton sabah başqa dövlətlərdə də həyata keçirə bilər. Bu yeni metodu - küçədə prezident elan edilməsi metodu adlandırmaq da olar. Maduro hələlik dirənir - baxmayaraq ki, inqilabın ilk günündən dezinformasiyalar yayılmağa başladı ki, guya Madura qaçmağa hazırlaşır, amma göründüyü kimi heç də elə deyil. Maduro heç yerə qaçmayıb, postundadır, tərəfdarları da küçələrdədir. Ordu d, polis də legitim prezidentin yanındadırlar. Proses belə davam etsə, Venesuelada Ukrayna, Liviyanın ssenarisi təbiq edilə bilər. Ordu və polis yavaş-yavaş müxalifətin tərəfinə keçə bilər. Yox, Türkiyədə Gəzi olayları, hərbi xuntanın cəhdi olan zaman iqtidar qısa zamanda necə çevrilişin qarşısını aldısa, Venesuela hakimiyyəti də çevriliş cəhdinin qarşısını alsa, onda vəziyyət sabitləşəcək və Maduro postunda qala biləcək. Müxalifət növbədənkənar seçkilər tələb edir, əks halda iqtidarı güc yolu ilə də olsa devirəcəyini deyir. Maduro bir az vəziyyəti udmaq üçün növbədənkənar seçkilərə gedə də bilər. Fikrimcə, Maduro növbədənkənar seçkilərə razı olsa, bu artıq müxalifətin qalibiyyəti olacaq".

Politoloq Türkiyənin mövqeyinə də toxundu: "Düşünmürəm ki, Venesuela böhranında Türkiyə-Qərb qarşıdurması yarana bilər. Belə bir şey o vaxt ola bilər ki, rəsmi Ankara Maduroya dəstək üçün hərbi güclər göndərsin. Artıq informasiya yayılıb ki, Moskva "Vaqner" muzdlu hərbi qruplaşmasını Venesuelaya rejimi qorumaq üçün göndərib. Bu nə qədər doğru xəbərdir deyə bilmərəm. Ola bilsin, həmişəki kimi ABŞ kütləvi informasiyalarının dezosudur. Onu da deyim ki, Venesuela OPEK-in əsas neft hasil edən dövlətlərindəndir. Və bu burnunun dibindəki üsyankar neft ölkəsini Ağ Ev ram etmək istəyir. Maduro devrilsə və ölkəsini tərk edə bilməsə, onu çox acı tale gözləyir. Onu vaxtı ilə ABŞ tərəfindən devrilmiş Çili, Panama liderlərinin taleyi gözləyə bilər. Maduro küçə döyüşü zamanı öldütdürülə də, həbs edilib tribunala verilə də bilər. Lakin Nikolas Maduronun sona qədər döyüşəcəyini gözləyirəm. Qardaş Türkiyə Venesuelanın legitim prezidenti Maduronun yanında olduğunu bildirdi. Azərbaycan da eyni mövqe sərgiləməlidir. Nikolas Maduronun iqtidarda qalması Türk-İslam dünyasının maraqlarına cavab verir. Gözlənildiyi kimi, bu məsələdə Türkiyə ilə Rusiyanın mövqeləri üst-üstə düşür. Azərbaycanın mövqe nümayiş etdirməsini heç kəs tələb etmir. Rəsmi Bakı adətən bu cür məsələlərdə susur. Bəlkə də rəsmi Bakı üçün ən düzgünü də elə budur. Amma Maduro Venesuelası həm Türkiyə, həm də Azərbaycana daha yaxın ölkədir. Quaido Venesuelası isə həm Türkiyə, həm də Azərbaycana daha uzaq ölkə olacaq. Latın Amerikasında da güclü erməni lobbisi fəaliyyət göstərir. Əsasən də Argentina və Uruqvayda. Son zamanlar Türkiyə və Azərbaycanın Venesuela ilə yaxınlaşması Cənubi Amerikada mövqelərimizin gücləndirilməsi anlamına gəlirdi. Venesuela ilə isti münasibətlərin qurulması, Çilidə səfirliyimizin açılması planları Azərbaycanın bu bölgədə iştirakına yol açırdı. Maduro Türkiyə və Azərbaycana Quaido və müxalifətdən daha yaxın adamdır. Ona görə Ankaranın Nikolas Maduroya bu cür açıq dəstəyi anlaşılandır. Eyni dəstək Mursiyə də verilmişdi. Praqmatik baxışdan bəlkə düzgün addım deyil, lakin mənəvi, ideoloji tərəfdən Türkiyənin bu addımları başa düşüləndir. Böyük dövlətlərin prinsipi belədir: hər yerdə özümüzünküləri qoruyaq. Türkiyə də yenidən böyük dövlətlər sırasına qayıtdığından hər yerdə özününkünü qoruyur. Necə ki ABŞ, Böyük Britaniya, Çin, Rusiya da bu cür edir".

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"

**Evində azyaşlı uşaq olan hər bir ailənin gündəlik ərzaq səbətində vazkeçilməz qidalardan biri də süddür. Lakin təmiz və sağlam südü haradan, necə əldə etmək sualı hamını narahat edir. Bəzi vətəndaşlar südü marketlərdən alır, daha etibarlı və təmiz olduğunu bildirirlər. Digərləri isə marketlərdə satılan və uzunmüddətli saxlama müddəti qoyulan südlərin tərkibində konservant maddələrin çox olduğunu, həmçinin qida dəyərinin aşağı olduğunu əsas gətirərək, rayondan fərdi şəkildə məhəllələrə, küçələrə gətirilib satılan südləri - kənd südünü alırlar. Bu südlər adətən, işlənmiş plastik su butulkalarına doldurulur və bu şəkildə satılır. Bu südün baytar nəzarətindən keçib-keçməməsi, hər hansı xəstəlik daşıması ehtimalı risk olaraq qalır.**

# Uşaqlar üçün südü marketdən, yoxsa kəndlidən alaq?

## **Vaqif Qarayev:** "Əldə satılan süd baytar nəzarətindən keçməyib və təhlükəsizliyinə heç kim nəzarət vermir"

## **Eyyub Hüseynov:** "Kənd südü qidalılıq, marketdəki südlər isə təhlükəsizlik baxımından üstündür"



Bəs uşaqlar üçün hansı südü haradan alaq, marketdən, yoxsa kəndlidən?

Pediatr Vaqif Qarayev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu çox ciddi məsələdir, istənilən şəkildə satışa çıxarılan südə baytar nəzarəti olmalıdır: "Baytar nəzarətindən keçibsə, sağlam süddürsə, plastik yox, şüşə qabda alıb uşağa vermək olar. Südü satan şəxsi tanısaq da məhsul baytar nəzarətindən keçmədiyi üçün risklidir. Bu mənada birmənalı fikir səsləndirmək çətindir. Bu məsələdə bir məqamı da vurğulamaq istəyirəm ki, nəinki südü, heç bir qida məhsulunu plastik qabda saxlamaq olmaz. Hazırda dünyada polietilen qabların əleyhinə ciddi kampaniya gedir, mübarizə aparılır. Plastik qabların və torbaların tərkibində bəzi kimyəvi maddələr var ki, məhsulun tərkibinə keçir. Biz isə az qala çörəyi də plastik qabda saxlayırıq. Gürcüstanda isə Tiflisdə artıq çoxdan plastik torbalar ləğv edilib, onların istehlakı qadağan edilib, bu yaxınlarda isə plastik qablar qadağan olunub. Marketlərdə mən də müşahidə aparmışam, orada evlərdə düzəldilən, üstündə hər hansı etiket olan və ya heç bir yazı olmayan bankalarda süd və süd məhsulları gətirib satışa verirlər. Bunu qətiyyən almaq olmaz, çünki onlar baytar nəzarətindən keçməyib və təhlükəsizliyinə heç kim nəzarət vermir. Keyfiyyətə gəlincə, şəhərdə saxlanılan mal-qara isə demək olar ki, insanların yedikləri yeməkləri yeyirlər, çörəklə qidalanırlar. Bir də var ki, dağ şəraitində təbii otlaqlarda bəslənən heyvanların südü. Bu daha keyfiyyətli olur, lakin heç kim zəmanət vermir ki, həmin məhsul baytar nəzarətindən keçib".

Pediatrın sözlərinə görə, müxtəlif tanınmış firmaların istehsalı olan karton qutulardakı südlərin isə istehsal tarixi və saxlanma müddətinə diqqət etmək lazımdır: "İkinci önəmli və daha acınacaqlı məqam isə bu südlərin saxlanma şəraitidir. Marketlərdə südləri bəzən adi metlaxın üstünə düzüb saxlayırlar və oradan da satırlar. Qida təhlükəsizliyi Agentliyi bu məsələlərə çox ciddi yanaşmalıdır. Hər bir məhsulun saxlanma rejimi var. Hər bir şirkət məhsulun üzərində qeyd edir ki, nə qədər müddətdə və hansı şəraitdə saxlanılmalıdır. Burada temperatur, rütubətlilik dərəcəsi, işıqlılıq dərəcəsi və sair məqamlar var. Məhsul istehsalçıdan marketə təhvil verilibsə, həmin qeydlərə əməl edilməlidir. Ancaq əməl edilmir".

V.Qarayev uşaqların düzgün qidalandırılması ilə bağlı həyəcan təbili çaldı: "Ölkədə mədə-bağırsaq pozğunluğu olmayan uşaq demək olar ki, yoxdur. Ancaq bunların hamısında ciddi səbəblər axtarmaq mənasızdır, bu qeyd etdiyimiz məsələlər səbəb olur. Bəzilərində xroniki ishal, bəzilərində xroniki qəbizlik olur. Səbəb qidanın keyfiyyəti və düzgün qidalandırmamaqdır. Bu çox vacib məsələdir. Qida təhlükəsizliyi hər bir dövlətin strateji məsələsidir".

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ilk növbədə məhsulun təhlükəsiz olmasına diqqət etmək lazımdır: "Məhəllələrə, qapılara gətirilən südlər qidalılıq baxımından marketlərdə satılan süddən üstündür. Lakin təhlükəsizlik baxımından yaxşı deyil. Marketlərdə satılan südlər isə qidalılıq baxımından zəif olsa da, təhlükəsizlik baxımından yaxşıdır, heç bir risk daşımır. Əgər bu göstəriciləri müqayisə etsək deyə bilərik ki, marketdə müxtəlif şirkətlərin istehsalı olan südlərə üstünlük vermək lazımdır. Onlar daha etibarlıdır. Plastik su butulkalarında gətirilən və qapı-qapı satılan südlərdə brusellyoz xəstəliyi ola bilər, məhsul anti-sanitariya vəziyyətində istehsal edilə bilər. Ona görə də, dükanlarda satılan südlərə üstünlük vermək lazımdır. Dükanlarda isə yalnız şüşə qablarda qablaşdırılmış, yararlılıq müddəti ən kiçik olan südlərə üstünlük vermək lazımdır. Əgər karton qutularda qablaşdırılıbsa, bir neçə ay yararlılıq müddəti göstərilibsə, o zaman belə südlərdən kənar durmaq lazımdır. 4 il öncə 3 gün yararlılıq müddəti olan şüşə qablarda qablaşdırılmış süd bazara çıxarılanda, mən bunu çox müsbət qarşılamışdım. Burada istehsalçı çox böyük risk götürərək, qısa bir müddət yararlılıq müddəti qoymuşdu".

**❑ Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Mənzillərin kirayə bazarında canlanma, satış bazarında isə durğunluq hökm sürür

## Pilot layihə çərçivəsində evlərin sökülməsi kirayə mənzil qıtlığına səbəb olub

**Nizami rayonundakı "makler bazarı" adlanan istirahət parkında canlanma yaşanır. Parkın girişi ev dəllalları və kirayə mənzil axtaran, mənzili kirayəyə vermək istəyən insanlarla doludur. Səbəb isə son zamanlar paytaxtda kirayə mənzilə tələbin artmasıdır.**



Alqı-satqı şirkətlərini, ofisləri bir-bir gəzmək istəməyən insanlar birbaşa maklerlərin toplaşdığı bu məkana üz tuturlar. Burada isə son aylarda əsl canlanma yaşanır. Çünki paytaxt Bakıda həyata keçirilən pilot layihə çərçivəsində köhnə və qəzalı vəziyyətdə olan yaşayış binalarının sökülməsi yeni bir kütlənin kirayə mənzil bazarına axın etməsinə səbəb olub. Nəticədə son aylar kirayə mənzillərin hiss olunacaq dərəcədə bahalaşması ilə yanaşı, mənzil tapmaq da müşkülə çevrilib. Belə ki, qaydalara görə, sökülən binaların sakinləri yeni bina hazır olana qədər işi aparan şirkətin vəsaiti hesabına kirayə mənzillərə köçürülür. Yeni binada mənzillər tam təmir olunduqdan sonra həmin sakinlərə təhvil verilir.

Kirayə mənzil bazarındakı son durumu öyrənməyə çalışdıq.

Bazarda olarkən ilk onu müşahidə etdik ki, buraya gələn ev dəllallarının sayı artıb. Kirayə bazarında tələbin artması bu işə marağı da artıb. Müştərilər isə ciddi tələb formalaşdırıb, bazarda ev tapmaq müşkülə çevrilib. Öyrəndik ki, kirayə mənzilə tələbatın çox olması qıtlığa səbəb olub. Müştərilərin çoxu evləri plana düşənlər və rayonlardan Bakıya işləmək üçün gələnlərdir.

Ev dəllalları ilə söhbət zamanı aydın oldu ki, son aylar evlərin bahalaşması aparılan söküntü işləri ilə əlaqəlidir: "Kirayə evlərin bahalaşmasının əsas səbəbi Bakıda aparılan söküntülərdir. Bildiyiniz kimi, pilot layihə çərçivəsində paytaxtda köhnə binalar, həyət evləri sökülərək, yerində yeni binalar inşa edilir. Tikinti şirkəti köçürülən ailələrlə müqavilə bağlayaraq, onları kirayə mənzillərə köçürürlər. Belə olan halda kirayə bazarında müəyyən vaxt canlanma oldu. Daha sonra nisbətən azaldı. Hazırda Nizami rayonu ərazisində, xüsusən də metroların ətrafında kirayə ev tapmaq müşkülə çevrilib. Gələn müştərilərə Qaraçuxurda, NZS qəsəbəsində, UPD adlanan ərazidə kirayə evlər təklif edirik. Lakin müştərilərin əksəriyyəti metrostansiyalara yaxın yerdən ev kirayələmək istəyirlər. Bu qədər insana isə ev tapmaq çətin məsələdir. Şəhərin mərkəzlərində boş evlər olsa da, çox bahadır".

"Makler"lərin sözlərinə görə, kirayə evlərin qıt olmasının səbəblərindən biri də tikinti şirkətlərinin sakinlərlə aralarındakı imzalanan müqavilənin pozulmasından irəli gəlir: "Pilot layihə çərçivəsində aparılan işlər zamanı sakinləri kirayə mənzillərə köçürürlər. Yeni vətəndaşlara pul verilir ki, bir neçə müddət kirayədə qalsınlar. Ancaq mən düşünürəm ki, həmin tikinti şirkəti söküntü işlərinə başlamamışdan öncə başqa bir yerdə çoxmərtəbəli bina inşa etdirib sakinləri oraya köçürməlidir. Təsəvvür edin ki, eyni anda köçürüləcək olan 150-200 ailə kirayə mənzil axtarışına çıxır. Kirayə mənzil bazarında bu qədər insana ev tapmaq çox çətindir. Misal üçün bizim kirayənişinimiz var ki, 4 ildir hələ də yeni mənzilinə köçməyib. Halbuki tikinti aparan şirkətlə iki il müddətində müqavilə bağlamışdı. Hələ də binanın təhvil verilməsini gözləyirlər. Ancaq şirkətin ehtiyatda binası olsa idi, oraya köçürərdilər, həmin evlərin yeri boşalardı. Kirayə mənzil bazarında vətəndaşların çətinliklə ev tapması bu şirkətlərin məsuliyyətsizliyindən irəli gəlir".

Maklerlər deyir ki, kirayə evlərin qiyməti son 2-3 ayda 50-100 manat civarında qalxıb: "Bazarda yaranan qıtlıqdan ev sahibləri udurlar. Əvvəllər 250 manata ikiotaqlı ev təklif edənlər, indi 320-350 manata təklif edirlər. Hazırda üçotaqlı kirayə ev 350-450 manat civarındadır. Evlərin qiyməti köhnə və yeni binada yerləşməsinə görə də dəyişir. Yeni tikili binalarda evlər bir qədər bahadır".

Ev alqı-satısı ilə məşğul olan Ramiz Salahov bildirdi ki, son vaxtlar gələn müştəriləri geri qaytarmaq məcburiyyətində qalırlar: "Bu günlərdə gələn müştərilərə ev tapa bilmirik. Əvvəllər yaxşı şəraiti olan birotaqlı evi 200-230 manata verirdimsə, indi 300 manatadır. Ancaq hazırda birotaqlı evim yoxdur. Demək olar ki, hər yerdə vəziyyət belədir. Nərimanov rayonunda evlər daha bahadır, nəinki Nizami rayonunda. Əksər evləri isə tələbələr kirayəyə götürüblər. Şəhərin mərkəzində təhsil alan tələbələr o ərazilərdə qiymətin baha olduğunu görüb nisbətən kənar yerlərdə, məsələn Nizami rayonu ərazisində ev axtarırlar. Artıq o qədər tələbat var ki, evlərin qiyməti süni şəkildə artırılıb. Ev sahibləri tələbatın çox olduğunu görüb, fürsətdən istifadə edərək, bahalaşdırırlar. İndi 2-3 tələbə birləşib, bir ev tutmağa məcbur qalırlar".

Kirayə mənzildən fərqli olaraq, mənzil satışında elə də bahalaşma olmadığını öyrəndik. Maklerlər mənzil satışı bazarında durğunluq olduğunu bildirdilər: "Əvvəllər ipoteka verilirdi, alıcılıq yaxşı idi. İndi durğunluqdur. Mənzillərin satış qiyməti elə də dəyişməyib. Birotaqlı ev həmişəki kimi 45-55 min manat, ikiotaqlı ev 55-70 min manat, üçotaqlılar isə 70-100 min manat civarındadır. Yenitikili binalarda isə təmirli birotaqlı evlər 70 min manatdan başlayır. Nizami rayonu ərazisində yenitikili binalarda təmirsiz mənzilin kvadratmetri 900 manatdan başlayır. Əvvəllər kvadratmetri 600-700 manata təklif olunan təmirsiz evlər hazırda yoxdur, minimum hər kvadratmetrini 900-1000 manatdan təklif edirlər".

**❑ Məğrur MƏRD, Foto müəllifindir**

YENİ MÜSAVAT
N 20 (7190) 28 yanvar 2019

# Paytaxt sakinlərinə müjdə: Bakıya elektrobuslar gəlir

**Azərbaycanda Belarus elektrobusları, avtobusları və kombaynlarının istehsalı başlayacaq. Bu barədə trend-ə Gəncə Avtomobil Zavodundan bildiriblər. Bunun ilə bağlı saziş Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və zavodun Müşahidə Şurasının sədri Xanlar Fətiyevin Belarusa səfəri çərçivəsində imzalanıb.**

## Ekspert: "Tramvay yolu çəkilərsə, tıxaclar da bir qədər azalar..."




Tərəflər Minsk Avtomobil Zavodunun (MAZ) avtobuslarının yığılması, "Belkommunmaş" şirkəti tərəfindən istehsal olunan elektrobus tərkib hissələrinin tədarükü və "Qomselmaş" zavodunda istehsal olunan kombayn tərkib hissələrinin tədarükü barədə saziş imzalayıb.

Məlumat üçün onu da qeyd edək ki, ötən il dekabrın 27-də "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı" qəbul edilib. Bu proqramda ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrinə keçidin təmin olunması ilə bağlı vahid proqram əsasında genişmiqyaslı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Ekspertlər bildirirlər ki, bu, ətraf mühitin mühafizəsi nöqteyi-nəzərindən də olduqca vacibdir.

Məlumat üçün onu da qeyd edək ki, elektrobus adlanan nəqliyyat vasitələri əslində trolleybusların bir qədər fərqli formasıdır.

"Yeni Müsavat"a danışan nəqliyyat eksperti İlqar Hüseynov bildirdi ki, Bakı yollarındakı ümumi vəziyyət, trolleybusların hərəkətinə imkan verir: "Sadəcə olaraq, problem tıxaclarla bağlıdır. Artıq Bakı tıxaclar şəhərinə çevrilib. Pik saatlarında, xüsusilə də axşam saatlarında əksər prospektlərimizdə ciddi tıxaclar yaşanır. Əslində tramvay nəqliyyat nəqliyyatının tətbiqi ilə bağlı fikirlər onunla bağlı idi ki, bu nəqliyyat vasitələrinin xüsusi yolu olur. Həmin yolla digər nəqliyyat vasitələri hərəkət etmirlər. Belə olan halda sərnişinlər mənzil başına vaxtında çatırlar. Eyni zamanda tramvay yolu çəkilərsə, tıxaclar da bir qədər azalar. Çünki nəzərə cəhətdən insanlar tramvaylara üstünlük verəcəklər. Elektrobuslara gəlincə isə hazırkı avtobuslarla onun elə də xüsusi fərqi yoxdur. Onlar üçün də hərəkət zolağının təminatı məsələsi ortaya çıxacaq. Elektrobusların tətbiqi ilə yalnız bir üstünlük əldə edəcəyik ki, şəhər ekologiyasına ciddi töhfələr olacaq. Nəqliyyatın hərəkətində isə yenə də tıxaclarla üz-üzə qalacağıq. Avtobusların hərəkəti ilə trolleybusların hərəkətində tıxac baxımında hansısa üstünlük olmayacaq. Əlavə yolların, zolaqların yaradılması məsələsini də düşünməliyik. Sözsüz ki, tramvayla müqayisədə trolleybusların tətbiqi daha ucuz başa gələcək. Ancaq yolda ciddi irəliləyiş olmayacaqsa, tıxaclar qalacaqsa, burada hansısa fərqli addımdan tam danışmaq olmur".

Elektrobusların elektrik xətlərinə gəlincə isə ekspert aşağıdakıları söylədi: "Sovet dönəmində trolleybusların hərəkətini izləyirdik və görürdük ki, qollar tez-tez elektrik xətlərindən ayrılır. Bu, asfalt örtüyünün pis olması səbəbindən və küləyin təsirindən baş verirdi. İndi isə texnologiya inkişaf edib və bu kimi halların qarşısını almaq mümkündür. Bu, sonuncu problemdir ki, Bakının küləyindən qollar elektrik xəttindən tez-tez ayrılacaq, nəqliyyatın hərəkətində fasilə olacaq. Məsələnin mahiyyəti bizim üçün bir neçə müddəadan ibarətdir. Belə ki, ilk növbədə elə nəqliyyat vasitəsi tətbiq etməliyik ki, vətəndaşlarımız sürətli şəkildə mənzil başına çatıb, tıxaclarda qalmasınlar. İkinci hədəfimiz də odur ki, şəhər ekologiyasına daha ciddi töhfələr verək. Əgər bu iki hədəfin birinə nail olub, digərinə nail ola bilmiriksə, o zaman natamamlıq yaranır. Sözsüz ki, bizim burada elə bir nəqliyyat növünü seçməliyik ki, heç bir hədəf natamam qalmasın. Bir qədər artıq vəsait xərcləsək də, tramvay yollarının qurulmasını və onun daha geniş tətbiqini həyata keçirərsə, bu, məqsədəuyğun olar".

Ekspert onu da dedi ki, Azərbaycanda istehsal edilən elektrobuslar xaricə də ixrac edilə bilər: "Mütləq mənada yanaşmayaq ki, elə bu nəqliyyat növləri istehsal ediləcəksə, mütləq Bakıda, digər iri şəhərlərimizdə fəaliyyət göstərəcəklər. Ola bilər ki, zavodun imkanları o qədər genişlənər ki, bu elektrobusları xaricə sataq. Polşada və digər Avropa ölkələrində trolleybuslar geniş tətbiq olunur. Eləcə də Belarus, Ukrayna, Rusiya və digər bu kimi ölkələrdə sovet dönəmində qurulan infrastruktur qorunub saxlanıb. Nəqliyyat olaraq trolleybuslar orada tətbiq edilir. Ola bilər ki, Azərbaycan istehsal etdiyi elektrobusların satışını təşkil edib, qazanclar əldə edər. Şəxsən mən buna inanmıram. Çünki Gəncədə avtomobil zavoduna da xeyli yatırım edilmişdi, lakin nəticə istənilən formada olmadı. İndi də nəticənin yüksək olması üçün ciddi nəzarət edilməlidir. Yalnız bu halda nəyəsə nail olmaq mümkündür".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# "İrşad Telekom"un sahibinin valideynləri kömək istəyir, həyat yoldaşı susur...

## Züleyxa Hacıyeva: "Sizə yalvarıram, oğlumun qanın yerdə qoymayın"

**"İrşad Telekom" MMC-nin rəhbəri, 40 yaşlı İrad Hacıyevin ötən il sentyabrın 14-də müəmmalı ölümü ilə bağlı atası Ağahüseyn Hacıyev danışıb. Ağahüseyn Hacıyev yerli mətbuata açıqlamasında deyib ki, oğlunun ölümü ilə bağlı hüquq-mühafizə orqanları bu günədək onlara hər hansı bir məlumat verməyib: "Bu barədə bizə heç nə demirlər. Oğlumun ölümü ilə bağlı araşdırmanın nəticəsini gözləyirik".**


İrad Hacıyev

Ağahüseyn Hacıyev biznesmen oğlunun ölümündən sonra mərhumun dostlarından da narazılıq edib: "Bir-iki dostundan başqa, digərləri qapımızı döymür, bizi axtarmır. O, bir-iki nəfər arada gəlib-gedirlər. Dünya qurulanda da belə olub".

"İrad Hacıyevin "İrşad Telekom" MMC-dəki dostları sizi axtarırmı" sualına Ağahüseyn Hacıyev əsəbi cavab verib: "Mənə artıq sual verməyin. Bu barədə açıqlama verə bilmərəm. Heç nə bilmirəm".

İrad Hacıyevin müəmmalı ölümündən sonra anası Züleyxa Hacıyevanın da müalicəsi yarımçıq qalıb.

Bu haqda Züleyxa Hacıyeva özünün sosial şəbəkədəki hesabında yazıb.

O yeriyə bilmədiyini, ağır xəstə olduğunu diqqətə çatdırır, oğlunun qanının yerdə qalmaması üçün çağırış edir: "Sizə yalvarıram, oğlumun qanın yerdə qoymayın. Elə oğul 100 min adamdan bir dünyaya gəlir".

İrad Hacıyevin ölümündən sonra onun qurub genişləndirdiyi biznesi - "İrşad Telekom"da da müəmmalı proseslər gedir. Şirkət qəfildən böyüməyə başlasa da, belə aydın olur ki, bundan Hacıyevin valideynləri xeyir görmürlər. Əks təqdirdə İrad Hacıyevin anasının müalicəsinin yarımçıq qalmasına nə səbəb ola bilər?

Qeyd edək ki, son 18 il ərzində Azərbaycanda telekommunikasiya biznesi sahəsində böyük uğurlar əldə etmiş məşhur iş adamının həyatdan intiharla, qəfil ölümlə ayrılmadığı qənaəti var.

Bu qənaəti dərinləşdirən İrad Hacıyevin həyat yoldaşı Nigar Hacıyevanın mövqeyidir. O, mətbuat nümayəndələrindən qaçır, suallara cavab verməkdən yayınır, eyni zamanda, mətbuatda İrad Hacıyevin intiharı ilə bağlı məlumatları məmnuniyyətlə paylaşır. Eyni paylaşımları Nigarın anası Fazilə Qəhrəmanovanın da facebook səhifəsində görmək olur.

Bir daha həmin günə - 14 sentyabr 2018-ci ilə qayıdaq. Ortada olan məlumatlardan belə aydın olur ki, həmin gün səhər İrad Hacıyev evdən çıxıb işlərinin dalınca getməyə hazırlaşıb. Gündəlik idman stilindən həmin gün imtina edən məşhur biznesmen klassik geyimdə evdən çıxmağa hazırlaşırmış. İrad Hacıyev kostyum geyinib evdən çıxıb, işgüzar görüşə gedəcəkmiş...

Lakin İrad Hacıyev iş dalınca gedə bilməyib. Həmin gün onun meyitini mənzilindəki vanna otağında həyat yoldaşı aşkar edib. Aşkarlanarkən İrad Hacıyevin cansız bədəni vannanın içində olub. Mərhum kostyumda imiş. Yanında da həmin o preparatlar, hansıları ki, illərlə onun həyat yoldaşı qəbul edib, onların boş qutuları olub.

Hadisə yerinə istintaqçılar gəlib və klassik intihar səhnəsinin şahidi olublar. Vannanın içində cansız bədən və boş dərman preparatlarının qutusu.

İrad Hacıyevin müəmmalı ölümü ilə bağlı başlanmış cinayət işinin məhkəmə-tibb ekspertinin rəyinə əsaslanaraq intihar etməsi qənaətinə gəlməsi də şübhəlidir. İrad Hacıyevin əmisi qızı Mətanət Əzizovanın iddia etdiyi kimi, yaxınlarının versiyaları istintaq tərəfindən niyə araşdırılmayıb?

İrad Hacıyevin meyitini mənzilindəki vanna otağında onun həyat yoldaşı aşkarlayıb. O, istintaqçılara deyib ki, İrad Hacıyev həmin gün işlərinin dalınca şəhərə çıxmağa hazırlaşıb. Həyat yoldaşı isə ondan əvvəl mənzili tərk edib və geri dönüb. Geri qayıdanda meyiti aşkarlayıb və bu haqda xəstəxanaya, polisə məlumat verilib. Belə iddialar da var ki, İrad Hacıyev ölümündən az əvvəl həyat yoldaşı ilə boşanması üçün konkret olaraq addımlar atıb, ölkədən gedərək xaricdə yeni həyat qurması planlarını gizlətməyib. Bunu ailəsində hər kəs bilib.

Hətta qadına boşanmaya razılıq verməsi üçün 100 min avro ödədiyi də gələn məlumatlar sırasındadır. Belə bir vaxtda onun qəfil və müəmmalı ölümü baş verib. Bu ölümə dərhal intihar adı verilir, yaxınları, ailəsi də susur. İş adamı İrad Hacıyevi tanıyanlar onun sağlığında ciddi problemlərin olmadığını deyirlər. Belə bir halda yaxınları onun ölümünün araşdırılmasını niyə tələb etmirlər?

Nigar ərinin ölümü ilə bağlı çox etinasız cavablar verməklə, "Yoldaşımın işi prokurorluqdadır" deməklə, "Mən intervyu vermirəm, suallarınız var, prokurorluğa verin" söyləməklə suallara cavab verməkdən yayınır.

Belədə ortaya sual çıxır - Nigar Hacıyeva danışıb nələrisə deməkdən niyə qorxur?

Yada salaq ki, İrad Hacıyevin əmisi qızı Mətanət Əzizova çox ciddi ittihamlarla dolu bir status paylaşmışdı. Həmin statusunda M.Əzizova yazırdı: "Təsəvvür edin, insanın meyitini evdə tapırlar, amma hüquq-mühafizə orqanlarının nümayəndələri evdə heç bir istintaq addımları atmırlar, hadisə yerindən əl izləri götürülmür, yaxın qohumların ifadəsi dinlənilir, nə də ki, yaxınları tərəfindən onlara təqdim edilən versiyalar araşdırılır. Təsəvvür edin ki, "sudmedekspertiza" rəy verir və rəsmi sənəddə ölümün səbəbini intihar yazır. Ay həkim, tibbi səbəbini yaz, a bala, ürəyimi dayanıb, beynimi, axı sən həkimsən, istintaq orqanı deyilsən, intihar və ya qəsdən öldürülmə bu müstəntiqin işidir, həkimin yox. Və həkimin rəyi əsasında cinayət işində ölümün səbəbi kimi intihar göstərilir".

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Samuxda faciə: gənc oğlan özünü güllələdi

**Samux rayonunda intihar hadisəsi baş verib. Musavat.com-un Qafqazinfo-ya istinadən məlumatına görə, rayonun Poylu kənd sakini 1995-ci il təvəllüdlü Alıyev Nurəddin Mülayim oğlu yaşadığı evdə ov tüfəngi ilə özünə atəş açaraq intihar edib.**



Gəncin hansı səbəbdən özünü öldürdüyü məlum deyil. Faktla bağlı Samux rayon Prokurorluğunda araşdırma aparılır.

YENİ MÜSAVAT
N 20 (7190) 28 yanvar 2019



# Dünyanı gözləyən böyük təhlükə: 2050-ci ilədək əhalinin yarısı uzağı görə bilməyəcək

## Özümüzün və uşaqlarımızın gözünün nurunu necə qoruyaq?

**Uşaqlarda və böyüklərdə telefon, eləcə də tablet istifadəsi ilə bağlı uzağı görə bilməmək mənasına gələn miopiya xəstəliyi sürətlə yayılır. Mütəxəssislərə görə, 2050-ci ildə dünya əhalisinin yarısı miopiya olacaq.**

"Yeni Müsavat" Türkiyənin "Sabah" qəzetinə istinadən xəbər verir ki, son dövrlər uşaqlarda və hətta böyüklərdə tez-tez görünən göz xəstəlikləri arasına girən miopiya (uzağı görə bilməmək xəstəliyi) epidemiya kimidir. Elm adamlarının proqnozlarına görə, 2050-ci ilə qədər dünyanın tamamən yarısı miopiya olacaq. Çünki uşaqlar tabletə və kompüterə baxmaqdan xarici atmosferə çıxmır. Göz xəstəlikləri mütəxəssisləri, uşaqlıq dövründəki miopiya xəstəlikləri hallarının artmasının ən önəmli səbəbi kimi həddən çox bağlı mühitdə olmasına və kompüterə çox baxmasını qabardır. Mütəxəssislər "göz sağlamlığı üçün mütləq Günəşə çıxın və 6 metrdən uzağa baxmağı vacib edən mühitdə olun" çağırışını edir. Dünyanı uzağı görə bilməməklə təhdid edən miopiya xəstəliyi ilə bağlı göz xəstəlikləri mütəxəssisləri vacib məlumatlar verib.

### Telefonla ən çox 20 dəqiqə

Türkiyənin göz xəstəlikləri üzrə mütəxəssisi Şule Ziylan bildirib ki, miopiya bütün dünyada sürətlə yayılıb: "Bunun səbəbi isə uşaqların yaxından baxdıqları telefon, tablet və kompüterdə çox vaxt keçirmələridir. Daha öncələr uşaqlar küçələrdə, parkda oynayırdı. İndi isə qapalı mühitlərdə, qaranlıq evlərdə çox vaxt keçirirlər. Bu da miopiyanın artmasına böyük təsir göstərir. Məsələn, Uzaq Şərqdə miopiya çox artdığı üçün burada yaşayan uşaqlara hər gün "gündə 2 saat Günəş işıqları altında, küçədə, parkda oynamaları" ilə bağlı müalicə variantları tətbiq edilir. Bayırda oyun oynamaq uşağın uzaq hədəflərə baxmasını təmin edir. Bizim üçün uşaqlar 6 metrdən uzağa baxmağı vacib edən açıq ortamlarda oynamalıdılar. Bu da parkda, küçədə, idman sahələrində olmaq deməkdir. Ailələr uşaqlarına tableti, telefonu, kompüteri 20 dəqiqədən artıq verməməlidir. Uşaqların əlinə əsla cib telefonu verilməməlidir".

### Gündə iki saat bayırda oynasınlar

Medipol Mega Universitet Xəstəxanası Uşaq Göz Sağlamlığı və Xəstəliklərinin həkimi Sevil Karaman da miopiyanın bütün dünyada böyük sıxıntılara səbəb olduğunu deyərək, aşağıdakıları bildirib: "2050-ci ildə dünyanın yarısının bu xəstəliyə tutulacağı təxmin edilir. Əvvəldən 18-20 yaşına qədər artım olan xəstəlik sonra dayanırdı. Amma indi risk 35 yaşına qədər davam edir. Xüsusən də Asiya ölkələrində bu, çox ciddi problemdir. Qərbdə də var, amma Asiyada bundan daha artıqdır. Nə edilə bilər? Nələr miopiyaya səbəb olar? Bütün bunlarla bağlı araşdırmalar aparılıb. Görülüb ki, uzun müddət ev içi atmosferində və ya qapalı ortamda qalmaq miopiya riskini artırır. Mütləq Günəş olan saatlarda 2 saat bayırda vaxt keçirmək lazımdır. Uşaq bağçalarında, bayırda oyun oynayan, bayırda vaxt keçirən uşaqlarda miopiya riski daha azdır. İkinci olaraq da böyük təhlükə yaradan şey tabletlər, kompüterlər. Uşaq tableti 30 santimetrdən yaxın tutub oxuyursa, bu, problem yaradır".

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) rəsmi statistikasına görə, bu gün dünyada 7 milyard əhalinin 300 milyondan çoxu 100 faiz görmə qabiliyyətinə malik deyil. 40 milyon insan isə kordur. Onların 1.5 milyonu uşaqlardır. ÜST-ün hesabatına görə, dünyada hər il görmə patologiyası 45 min artır. Azərbaycanda isə görmə əngəlli insanların sayı 30 min nəfərdir.

Beynəlxalq Korluğun Profilaktikası Agentliyinin məlumatına görə, dünyada təxminən görmə problemi olan 300 milyon adamın 41 milyonu korluqdan əziyyət çəkir. Korluqdan əziyyət çəkən insanların 82%-i yaşı 50-dən yuxarı olanlardır. Görmə problemləri olan insanların 19 milyonu uşaqlardır, onlardan 1,5 milyon uşaq tam korluqdan əziyyət çəkir. Dünyada hər il görmə problemləri olan insanların sayı 45 min artır.

Qeyd edək ki, korluq - görmə qabiliyyətinin itirilməsidir. Xroniki korluğun əsas səbəbləri katarakta, qlaukoma, gözün tor qişasındakı sarı ləkənin yaşlanma ilə əlaqədar degenerasiyası, buynuz qişasının ləkələnməsi, zədə, uşaqlarda anadangəlmə göz xəstəlikləridir. Dünyada, həmçinin yaşın artması və nəzarət olunmayan şəkər xəstəliyi ilə bağlı korluq da geniş yayılıb. Mütəxəssislərə görə, vaxtında müayinə və müalicə etməklə korluq hallarının 80%-nin qarşısını almaq mümkündür. Qazanılmış forma ən çox Computer Vision Syndrom deyilən zamanı üzə çıxır. Çünki bu zaman kompüterlə uzunmüddətli iş zamanı göz yüklənir .

Ən çox yeniyetmə və kiçikyaşlı uşaqlarda süni şəkildə miopiya meydana çıxır. Bu pasiyentlər yaxına uzun müddət baxdıqlarına görə, sonradan uzağa baxdıqları zaman bulanıq görürlər. Bunun qarşısını almaqdan ötrü gözə fasiləli olaraq, hər 30 dəqiqədən bir 10-15 dəqiqə fasilə vermək lazımdır. Bu zaman uzağa baxmaq lazımdır ki, göz spazm vəziyyətinə düşməsin. Bundan başqa, həkim təyinatı əsasında gözü qidalandıracaq qaragilə, qarağat tərkibli kapsullardan ildə 2-3 dəfə qəbul edilməlidir. Əgər anadangəlmə yaxındangörmə və uzaqdan görmə problemi varsa, bu zaman onun qarşısını almaq çətin olur. Bu zaman yalnız profilaktik tədbirlər görülür ki, bu problemin irəliləməsinin qarşısı alınsın. Əgər bu, proqressivləşən miopiyadırsa, bu zaman onun qarşısını almaq mümkün olmur. Yalnız eynək vasitəsi ilə pasientə korreksiya verilir ki, görüntü itməsin.

18 yaşdan yuxarı olan pasient 6 aylıq kontrola alınır, ölçülərində bir dəyişiklik olmadığı təqdirdə ekzimer lazer vasitəsi ilə (əks göstəriş yoxdursa) bu xəstəlik aradan qaldırılır.

### Görmə qabiliyyətini artırmaq üçün vasitələr, dərmanlar

Yaşı 40-ı ötənlər arasında isə görmə problemi olmayanlara, ümumiyyətlə, nadir hallarda rast gəlinir. Oftalmoloqlar görmə qabiliyyətini yaxşılaşdırmaq, görmə itiliyini artırmaq və göz əzələlərini möhkəmləndirmək üçün nəzərdə tutulan müalicəvi gimnastika və müxtəlif dərman vasitələri məsləhət görürlər. Ahıl yaşlarda görmə qabiliyyətində yaranmış zəifliyi azaltmaq üçün gicitkəndən hazırlanmış şorba, qutab və kükü kimi yeməklərlə qidalanmaq lazımdır.

Yetişmə mərhələsində olan yerkökünün yaşıl hissəsi təzə halda yeyiləndə və ya salatlara qatılanda gözün görmə qabiliyyətində yaxşılaşdırmaya səbəb olur. Onun yaşıl hissələrini qurudaraq ədviyyat kimi də istifadə etmək olar. Qaragilə, quşüzümü, soğan, sarımsaq, badam, qara gilas, cəfəri, xiyar, şüyüd, kök, çuğundur və kərəviz kimi meyvə-tərəvəzlər gözün görmə qabiliyyətini yaxşılaşdırır. Qida rasionunda əsasən tərkibi A, B qrup vitaminləri ilə zəngin olan ərzaqlardan istifadə edilməlidir.

Görmə qabiliyyətinin yaxşılaşdırılması üçün bir sıra xalq təbabəti üsulları da var. Təzə yığılmış keşniş xırdalanır və gündə 1-2 dəfə10-20 dəqiqə gözlərin üstünə qoyulub saxlanılır.

Toyuq korluğu zamanı gündə iki dəfə yeməkdən sonra bir qədər suda həll edilmiş 1 damcı dəmrovotu şirəsi içmək lazımdır. Kələm yarpaqları təmiz yuyularaq qaynadılır, soyuyandan sonra yarpaqları gündə 3-4 dəfə yeyilir, qaynadıldığı su içilir. Kartofun üzərində yaranan cücərtilər toplanaraq qurudulur, alınan xammaldan 1 xörək qaşığının üzərinə 1 stəkan 40 faizli spirt əlavə edilir, 1 sutka saxlanılır, süzülür və gündə üç dəfə yeməkdən sonra 1 çay qaşığı qəbul edilir.

Gülümbahar və göyçiçəyin dəmləmələri islatma şəklində göz qapaqlarının üzərinə qoyulanda göz yorğunluğunu aradan qaldırır. Yaxındangörmə zamanı qurudulub üyüdülmüş yemişan meyvələri 1:1 nisbətində balla qarışdırılaraq gündə 3 xörək qaşığı qəbul edilir.

### Həm oxuyaq, həm də gözləri qoruyaq - necə?

Görməni pisləşdirən yaygın səbəblərdən biri də kitab və ya kompüterdən hansısa materialı oxuyarkən gözləri süni olaraq gərginləşdirməyimizdir. Gözlər sətir boyu soldan sağa çevik olaraq gəzişir, yuxarıdan aşağı isə zəif sürətlə yer dəyişir. Bu marşrut göz əzələlərinin yorulmasına səbəb olur. Bunun qarşısını almaq üçün aşağıdakılara əməl etməmiz lazımdır:

Gözlərimizi tez-tez ekran və ya səhifədən ayırıb 1-2 saniyə ətrafa nəzər salmaq (icrası çox vacibdir);

Oxu zamanı başımızı və ya kitabı yavaş-yavaş tərpədərək göz və səhifə arasındakı məsafəni daim dəyişmək;

Səhifəyə baxdığımız bucağı müəyyən dövrdə bir dəyişmək (yerimizi və ya kitab,ekranın yerini azca dəyişərək);

Oxu zamanı gözün fokusunu hərflərin özünə yox, mümkün qədər sətir arası ağ sahələrə yönəltmək;

1920-ci ildə amerikan oftalmoloqu William Bates (Vilyam Beyts) görmənin pisləşmə səbəbləri haqqında öz şəxsi yanaşmasını işləyib hazırladı. Onun əsas ideyası bu idi ki, görməni pisləşdirən əsas səbəb psixi gərginlikdir. İnsan özü nəyəsə baxarkən gözlərinə artıq "yük salmış" olur və gözlər bundan daimi zərər görür. Bates iddia edirdi ki, normal halda gözlər hər hansı obyektə baxarkən gərginləşməməlidir. Gözlər bütün digər orqanlar kimi sağlam qalması üçün gərgin olmadan fəaliyyət göstərməlidir.

Əgər insan nəyəsə uzaqdan və ya yaxından baxmaq istəyirsə, göz əzələləri müəyyən yığılmalar edərək göz almasının formasını dəyişmiş olur. Bu halda göz əzələlərinin yığılmasına sərf olunan səy gözləri gərginləşdirmir. Gözləri gərginləşdirən hal, məsələn, belə haldır: İnsan nəyisə yaxşı görə bilmir, gözlərini müəyyən formaya salaraq (qıymaq, kəskin bucaqla kənara baxmaq və.s.) görməyə cəhd edir. Bu hal davam edəndə gözlər yorulmağa başlayır, gərginlik yaranır, gərginlik isə orqanın fəaliyyətini zəiflətməyə xidmət edir.

Bates-in yanaşmasından çıxan əsas nəticə budur ki, görməni mühafizə etmək və yaxşılaşdırmaq üçün əsas təbii metod onu daim yorulmaqdan qorumaqdır, onu daim rahat halda (relax) saxlamaqdır. Konkret metodlara keçək, hansılar ki, Bates və onun ardıcılları tərəfindən hazırlanıb. Bates hesab edirdi ki, gözləri rahatlatmaq, gərginlikdən qorumaq üçün ən yaxşı şərait tam qaranlıq şəraitdir.

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 20 (7190) 28 yanvar 2019



# Qrip olmaq üçün 80 dollara dəsmal satılır

**Amerikanın Vaev kompaniyası içində mikroorqanizmlər olan kağız dəsmallar satışa çıxarıb. Bu barədə lenta.ru saytı xəbər verib. Tərkibində qrip virusu daşıyıcıları olan bu dəsmalları 80 dollara satın almaq olar. Bu dəsmallar insanlara şəxsi arzularına əsasən xəstələnməyə imkan verir. Bundan başqa, dəsmalları istehsala buraxan Vaev kompaniyası hesab edir ki, virus yüklənmiş dəsmallar insanların immunitetini möhkəmləndirir.**

Amma elm adamı K.Şeffnet Vaev adlı bu kompaniyanın ideyasına şübhə ilə yanaşır. “Əgər dəsmalların təsir gücü böyükdürsə, onlar təhlükəli ola bilərlər. Hərçənd mən onların təhlükəli olmasından şübhəliyəm”. Onun sözlərinə görə, hazırda soyuqdəymənin 200-ə yaxın növü var. Hətta Vaev dəsmallarından kimsə mikroba yoluxsa, onun immuniteti necə qoruyacağı da şübhəlidir. Bundan başqa, alim virusların dəsmaldan buruna qədər “səyahət”ə tab gətirə biləcəyinə inanmır.

# Az yatmaq insanı kökəldir

**Kilo problemi, ümumiyyətlə, çox yeməyə və az hərəkət etməyə bağlı olsa da, az yatmağın köklük yaradan gizli bir düşmən olduğu müəyyən olunub. Son 40 ildə aparılan araşdırmalar, indiki vaxtda yuxu müddətinin doqquz saatdan yeddi saata düşdüyünü və insanların daha az yatıb daha çox kilo aldıqlarını göstərir. Mütəxəssislər, az yatmanın insan sağlamlığı üzərində bir çox mənfi təsiri olduğunu və kilo probleminin də bu mənfiliklərdən biri olduğunu ifadə edir.**



Televiziya və kompüter qarşısında keçirilən zamanın gec saatlara qədər davam etməsi gecə nələrsə yeməyinizə səbəb olur. Gecə gec alınan qidaları bədən tərəfindən enerji olaraq xərclənə bilmədiyindən yığılaraq kiloya çevrilir. Yuxusuzluğun əsəblər üzərində də mənfi təsirləri var, yuxusuzluq sinirləri xəbərdar edərək rahatlamasını maneə törətdiyini, karbonhidrat və şəkərli yeməklərə meylin daha çox artdığını və kortizol deyilən stress hormonunun da yuxusuzluq müddəti tərəfindən artaraq yağlanılmağa səbəb olduğunu bilirik.

# Burda kişilər bir neçə arvad alır - su daşıtdırmaq üçün...

**Hindistanın Mumbay şəhərindən 140 kilometr aralıda yerləşən Denqanmal kəndi quraqlıq bölgədədir. Sakinlərin ən böyük problemi, ən ağır müşkülü içməli sudur. Qayalıq təpənin yamacının yaxınlığındakı kənd camaatı suyu uzaqdan daşıyır. Su daşımaq da, təbii, yerli adətlərə uyğun olaraq, qadınların və qızların işidir.**

Denqanmal kəndinin xanımları suyu kənddən 48 kilometr uzaqda, qayanın dibində yerləşən iki quyudan gətirirlər. Su gətirmək saatlarla davam edən işdir. Bu səbəbdən də kənddəki kişilər ailənin “su təminatını yaxşılaşdırmaq” üçün bir yox, iki və ya üç arvad alırlar. Kəndin yerləşdiyi Maharaştra ştatında son onilliklərin ən quraqlıq dövrü yaşanır. Ümumiyyətlə isə böyüklüyünə görə Hindistanın ikinci ştatı olan Maharaştrada 19 mindən artıq kənddə içməli su problemi var. 100 evdən ibarət Denqanmal kəndində kişilərin tam əksəriyyəti qonşu kəndlərdə fəhlə və ya muzdur işləyirlər. Poliqamiya, yəni çoxarvadlılıq Hindistanda qanunsuz əməl sayılsa da, məmurlar Denqanmal kimi kəndlərdəki olaylara göz yumurlar.





# Pişik iki ildir yanan evin yanından aralanmır

**Rusiyanın Çelyabinsk vilayətində Rıjik təxəllüslü pişik tapıblar. Bu pişiyin özəlliyi iki il öncə sahibəsinin yanan evinin yanında keşik çəkməsidir. Heyvan 2017-ci ildə evlərində yanğın olan gündən küçədə qalıb. Yanğına qədər ailədə dörd nəfər yaşayıb: ana və 3 uşağı. Qadın və onun 17 yaşlı qızı diri-diri yanıb. Biri 4, digəri 5 yaşında olan digər iki uşaq isə həmin gecə uzaq qohumlarının evində qalıb.**

“İndi isə onlar uşaq evində yaşayırlar. Ailənin yaxın qohumları yoxdur deyə pişiyə və uşaqlara da heç kim sahib çıxmır” - bunu polisdən deyiblər. Ailənin pişiyi isə yay-qış demədən küçədə, evin yanında, çirkin içində yaşayır. Rıjik adlı pişik sahibəsinin evindən aralanmır, hətta onu uzağa aparsalar da, bir müddət sonra o evə qayıdır.




**QOÇ** - Səbirli olmaq, bir qədər məxfilik nümayiş etdirmək yaxşı olardı. Çünki bu gün ovqatınızı aşağı sala bilən adamlarla rastlaşa bilərsiniz. Saat 15-19 arası pul əldə etmək şansınız çox böyükdür.

**BUĞA** - Nahara qədər bir çox sahələrdə diqqətsizliyiniz ucbatından problemlərlə rastlaşa bilərsiniz. Bu səbəbdən də bütün məsələlərdə ayıq-sayıq olmalı, lazım gəldikdə məsləhətlərdən yararlanmalısınız.

**ƏKİZLƏR** - Sevgi münasibətlərində mövcud olan passivliyinizi aradan qaldırmağa çalışın. Qarşı tərəfə güzəştə gedin. İş gününün sonunda şəxsi büdcənizi artırmaq imkanı qazanacaqsınız. Özünüzü soyuqdan qoruyun.

**XƏRÇƏNG** - Sizin üçün xüsusi bir gündür. Çünki bu gündən kosmik fon xeyrinizə dəyişəcək. Deməli, digər bürclərlə müqayisədə sizi daha şanslı və perspektivli günlər gözləyir. Buna hazır olun.

**ŞİR** - Daxili sıxıntılarınızı dəf etmək üçün bir qədər təmiz havada olun. Lazımsız informasiyalarla özünüzü yükləməyin. Əgər fəaliyyət istiqamətində yeni təkliflər alsanız, razılıq verməyə tələsməyin.

**QIZ** - Bu günün planetar mənzərəsi xeyrinizə işləyəcək. Bununla da siz şanslılar sırasına düşəcək, uğurlar silsiləsinin başlanğıcına yetişəcəksiniz. Gün ərzində yalnız bu barədə düşünməlisiniz.

**TƏRƏZİ** - Günə yeni planlarla başlamalısınız. Amma ulduzlar məsləhət görür ki, bütün qlobal planlarınızda məxfiliyə riayət edəsiniz. Yalnız bu halda günün ovqatı sizi qane edəcək. Uzaq yola çıxmağa dəyməz.

**ƏQRƏB** - Səhər saatlarında azacıq gərginliyiniz olsa da, bu, tez ötüb keçəcək. Əslində bu əlamətdar təqvimdə gərək özünüzü toparlamağı bacarasınız. Çünki günortaya doğru sevindirici olaylar başlayacaq.

**OXATAN** - İxtiyarınızda olan bu təqvimdə hüquqi sənədlərlə, maliyyə-bank əməliyyatları ilə bağlı bütün yarımçıq işlərinizi başa çatdırmalısınız. Bunu bacarsanız, ayın sonuna qədər ovqatınız çox yüksək olacaq.

**OĞLAQ** - Tələsik qərarlar, riskli vədlər verməyin. Əslində bu gün siz ətrafınızda olan insanların mahiyyətini, onların sizə sədaqətliliyini yoxlamalısınız. Axşam saatlarında soyuqdəymədən qorunmalısınız.

**SUTÖKƏN** - Bürcünüzün Göy qübbəsində tam oturuşması şanslarınızı xeyli artıracaq. Hətta baş verən situasiyalarda iştirakınızdan asılı olaraq bugünkü ovqatınız bütün ilboyu davam edə bilər. Bu səbəbdən də nə olursa-olsun, nikbinliyinizi əldən verməməlisiniz.

**BALIQLAR** - Saat 13-ə qədər tamamlanması mümkün olan bütün işləri başa çatdırın. Sonrakı müddətdə isə Göy qübbəsinin sizin üçün hazırladığı sürprizlərə hazır olmalısınız. Tənqidi təhqir kimi qəbul etməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 99 yaşlı kişi ilə 96 yaşlı qadın boşandı



**60 illik evlilik həyatından sonra boşanma qərarı alan cütlüyün hekayəsi də olduqca maraqlıdır. Amerikada baş vermiş bu hadisə dünyanın ən qəribə boşanma hekayəsi kimi tarixə düşüb. Belə ki, 99 yaşlı kişi 96 yaşlı həyat yoldaşına keçmiş sevgilisi tərəfindən 1940-cı ildə yazılmış məktubu indi tapıb. Məktubu oxuyub bitirdikdən sonra boşanmaq üçün məhkəməyə müraciət edib. Onlar ən gec boşanan cütlük kimi tarixə düşüb.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Son dəqiqə” MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.